RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 193 (9360) 8 SENTYABR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyevin şərtləri dəyişmir

## Azərbaycan Prezidenti Ağ Evə də Laçın-Xankəndi yolu ilə bağlı qətiyyətli mövqeyini bir daha çatdırdı

**Ermənistanın artıq xeyli vaxtdır ki, Qarabağ və Şərqi Zəngəzurda vəziyyəti gərginləşdirməkdən ötrü əl atmadığı oyun qalmayıb. Rəsmi İrəvan siyasi manipulyasiyası, şantaj və böhtanları ilə beynəlxalq ictimaiyyətdə yanlış fikirlər formalaşdırmaqla nəyəsə nail olmaq istəyir. Yəni Hayastanın siyasi rəhbərliyi bütün hallarda sülh sazişinin imzalanmaması üçün mümkün çirkinliklərdən istifadə edir. Lakin əsl həqiqətlər məğlub ölkənin iddialarını ifşa edir.**

İki ölkə arasında sülh müqaviləsinin imzalanması istiqamətində vasitəçilik missiyasını üzərlərinə götürdükləri görüntüsü yaradan və hətta bu istiqamətdə sanki yarışa çıxan Rusiya, Avropa İttifaqı və ABŞ yenə də Ermənistanın bu oyunlarına göz yumurlar. Bu azmış kimi Aİ-nin Ermənistana göndərdiyi xüsusi missiyası Qarabağdakı separatçıların təxribatlarına haqq da qazandırır. Son iki həftədə missiyanın yaydığı "açıqlama" bunu təsdiqləyən reallıqdır.

Rəsmi Moskva Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycan ərazilərində qeyri-qanuni separatçı dəstələrin qanunsuz hərbi yüklərin daşınması faktlarına heç bir reaksiya vermir.

Sülh danışıqlarında vasitəçi olmaq istəyini bildirən ABŞ isə bir tərəfdən XİN başçılarının görüşlərini təşkil edərək, guya, prosesə töhfə verməyə çalışdığını nümayiş etdirir, digər tərəfdən isə BMT Təhlükəsizlik Şurasındakı təmsilçisi Ermənistanın uydurma yalanlarına haqq qazandırır. Bu da bir daha ikili standartların, Ermənistana açıq havadarlığın göstəricisidir. Bu, Ağ Evin rəsmi şəxslərinin çıxışlarından başlayaraq, media orqanlarında dərc olunan yazılara qədər özünü göstərir.

→ 6

# Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur

## Prezident İlham Əliyev türk dövlətlərinin Bakıda keçirilən tədbirlərdə iştirak edən nazirlərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçıları - Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev, Türkiyənin daxili işlər naziri Ali Yerlikaya, Qazaxıstanın fövqəladə hallar naziri Sırım Şaripxanov, Qırğızıstanın fövqəladə hallar naziri Boobek Ajikeev, Özbəkistanın fövqəladə hallar naziri Abdulla Kuldaşev və Şimali Kiprin daxili işlər naziri Dursun Oğuzu qəbul edib.

→ 2

# Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan arasında əməkdaşlıq daha da genişləndirilməlidir

## Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Rigterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı bu ilin yanvarında Davosda Prezident İlham Əliyevin Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti ilə görüşü məmnunluqla xatırlandı.

→ 2

# Azərbaycan və Braziliya arasında əlaqələr bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək

## Braziliya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Luiz İnasio Lula da Silvaya

Hörmətli cənab Prezident!

Braziliya Federativ Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu il Azərbaycan ilə Braziliya əlamətdar ildönümünü - diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcəkdir. İnanıram ki, birgə səylərimizlə dövlətlərarası əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli qaydada, həm də beynəlxalq təsisatlar çərçivəsində bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 sentyabr 2023-cü il*

# Qərəzli fəaliyyəti BBC-ni nüfuzdan salır

## Erməni yalanlarına açıq dəstək verməsi bu beynəlxalq media orqanının Azərbaycandakı fəaliyyətinə yenidən baxılması məsələsini də gündəmə gətirir

Vətən müharibəsindən sonrakı dövrdə isə erməni lobbisi ələ aldığı Qərb media resursları vasitəsilə ölkəmizə qarşı daha aqressiv hücumlara keçib. BBC başda olmaqla, Qərbin bəzi qərəzli KİV-i Azərbaycanla bağlı böhtan xarakterli materiallar yayımlamaqda davam edir. Ermənilərin Laçın yolu ətrafında spekulyasiyasına və Xankəndidə "aclıq oyunları" tamaşasına proqramlarında geniş yer ayırırlar. Amma ölkəmizin Qarabağda yaşayan erməni sakinlərə alternativ yollar təklif etməsini, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Xankəndiyə 40 ton un qismində ərzaq yardımı göndərməsini görmək istəmirlər. Əvəzində isə, məsələn, elə BBC erməni separatçını öz verilişinə dəvət edir, onun "artsax"la bağlı sərsəmləmələrini yayımlayır. Beynəlxalq hüququ pozaraq Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə dil uzadır və beləcə, beynəlxalq jurnalistikanın prinsiplərinin üzərindən qara xətt çəkir.

Təəssüf ki, Fransanın "Le Monde" qəzeti, o cümlədən "The New York Times" nəşri də BBC-nin qərəzli yolunu davam etdirir. Bu orqanlarda yayımlanan məqalələrin hamısının arxasında erməni lobbisinin dayandığı çox açıq görünür.

→ 6

# Düşmən dəyirmanına su tökməyək

## Ordumuzla bağlı videoçəkilişlər aparmaq, onları sosial şəbəkələrdə yaymaq yolverilməzdir

Lakin unutmaq olmaz ki, bu, cinayət əməlidir və hüquqi məsuliyyəti var. Bilərəkdən və ya bilməyərəkdən bu prosesə rəvac verən həmvətənlərimiz hüquqi məsuliyyəti dərk etməlidirlər.

Erməni xüsusi xidmət orqanları və onların havadarları, hətta onlarla əməkdaşlıq edən digər dövlətlərin xüsusi xidmət orqanları da bu materialların yayılmasında maraqlıdırlar. Onlar belə kadrlar vasitəsilə Azərbaycan Ordusunun qüvvələrinin harada olduğunu öyrənirlər. Bunun qarşısını almaq, əlbəttə ki, öz əlimizdədir. Lazım olan məqamlarda hətta hüquq-mühafizə orqanlarına, Dövlət Təhlükəsizlik Xidmətinə bunu qəsdən yayan şəxslər haqqında məlumat vermək lazımdır. Hər bir vətəndaş dövlətçiliyimiz naminə əlindən gələni əsirgəməməlidir.

Unutmaq olmaz ki, müasir dövrdə düşmənin xüsusi xidmət orqanları ilə əməkdaşlıq heç də ənənəvi şəkildə dövlətə xəyanət formatında baş verməyə bilər. Hətta adi ünsiyyət zamanı Silahlı Qüvvələrimizlə fəxr edərək, qürur hissi ilə paylaşılan bu qəbildən olan istənilən məlumat Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlıq hesab edilə bilər. Ona görə də vətəndaşlarımız Azərbaycan Silahlı Qüvvələrinə aid və dövlət sirri təşkil edən məlumatları özündə ehtiva edən foto və videoçəkilişlər aparmaqdan və yaymaqdan çəkinməlidirlər.

→ 7

# Hayastanın atəşkəsi pozmaqda məqsədi nədir

## Yoxsa başı əzilən revanşistlər yenidən müharibə istəyirlər

Fransanın Qarabağda yerləşməsinin yolu yenidən Ermənistan-Azərbaycan müharibəsinin başlanmasından keçir. Elə bu məqsədlə də Ermənistan gücü çatmayan daşın altına girmək məcburiyyətində qalaraq hər gün təxribat törədib Azərbaycanı genişmiqyaslı əməliyyatlara cəlb etmək istəyir.

→ 7




# Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli, hərbi və siyasi təxribatlara son qoymalıdır

Bölgədə təhlükəsizliyə əsl hədənin Ermənistan tərəfindən hərbi-siyasi təxribatların davam etməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı baş nazir daxil olmaqla Ermənistan tərəfinin davam edən iddiaları, öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələri olduğu hər kəsə məlumdur.

→ 7

# Yurda qovuşmaq sevinci



2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin məskunlaşması nəzərdə tutulur. Çox keçməz ki, işğaldan azad olunmuş bütün rayonlarımızın əzəli sakinləri geri dönər. Onlar hər il şəhər günlərini təmtəraqla, qürurla, fəxrlə öz dədə-baba yurdlarında qeyd edərlər. Bununla da 44 günlük Vətən müharibəsindəki şanlı qələbə ilə məcburi köçkün adı üzərlərindən götürülənlərin vətən həsrətinə, nisgilinə birdəfəlik son qoyulacaq.

→ 8

# Azərbaycan bütün türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur

## Prezident İlham Əliyev türk dövlətlərinin Bakıda keçirilən tədbirlərdə iştirak edən nazirlərini qəbul edib

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bu gün Bakıda Türk Dövlətləri Təşkilatının fövqəladə hallar nazirlərinin iclası öz işinə başlayır. Bu, çox önəmli hadisədir. Əminəm ki, iclas çox yaxşı keçəcək, nəticələr də çox uğurlu olacaq.

Bildiyiniz kimi, iki aydan sonra türk dövlətlərinin başçıları səviyyəsində Zirvə görüşü keçiriləcəkdir. İndi Zirvə görüşünə böyük hazırlıq işləri gedir, o cümlədən fövqəladə halların idarə edilməsi istiqamətində də işlər gedir. Bildiyimə görə, iclasda o cümlədən qarşılıqlı yardım haqqında sazişin hazırlanması da nəzərdə tutulmuşdur. Buna böyük ehtiyac var. Çünki hamımız yaxşı bilirik ki, son vaxtlar bölgəmizdə və bütövlükdə dünyada fövqəladə halların sayı kəskin artıb. Bunun bir çox səbəbləri var. Ancaq fakt odur ki, bu gün misli görünməmiş ölçüdə daşqınlar, zəlzələlər, yanğınlar adi hala çevrilib. Fürsətdən istifadə edərək, bir daha qardaş Türkiyəyə dəhşətli zəlzələdə həlak olanların xatirəsini hörmətlə anaraq, bir daha başsağlığı vermək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan ilk saatlardan, ilk dəqiqələrdən bu dəhşətli zəlzələ ilə bağlı öz səylərini göstərmişdir. Hazırda Qəhrəmanmaraş şəhərində Azərbaycan dövləti tərəfindən inşa ediləcək şəhərciyin son parametrləri müəyyən edilir və yaxın zamanlarda biz inşaata başlayacağıq.

Azərbaycanın bu istiqamətdə təcrübəsi kifayət qədər böyükdür. Son illər ərzində maddi-texniki bazamızın möhkəmləndirilməsi istiqamətində işlər aparılıb, xilasedicilərin peşəkarlığı artıb. Bütövlükdə bizim müxtəlif bölgələrdə, o cümlədən türk dünyasını birləşdirən ölkələrdə apardığımız xilasedici missiyalarımız əyani şəkildə bizim imkanlarımızı və niyyətimizi göstərir. Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən Azərbaycan. Azərbaycan bütün dövrlərdə bu təşkilatın güclənməsinə hər zaman öz dəstəyini əsirgəməmişdir və bizim xarici siyasət prioritetləri arasında təşkilata üzv ölkələrlə əlaqələr birinci yer tutur. Bunu mən Prezident kimi dəfələrlə bəyan etmişəm, eyni zamanda biz bunu əməli işlərdə də göstərmişik.

Türk dünyası böyük bir ailədir və şadam ki, son illər ərzində bütün üzv və müşahidəçi ölkələr tərəfindən təşkilata böyük dəstək göstərilir. Təbii ki, növbəti illərdə də bu dəstək göstərilməlidir. Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun. Burada, əlbəttə ki, həm qarşılıqlı yardım, eyni zamanda iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə daimi koordinasiya və məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardım, yəni bütün bunlar önəmli amillərdir və bizim birliyimizi daha da gücləndirəcək. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır.




Bir daha demək istəyirəm ki, Azərbaycan üçün türk dövlətləri ilə əlaqələr xarici siyasətdə birinci dərəcəli vəzifədir. Təsadüfi deyil ki, son bir neçə il ərzində mənim təşkilata üzv olan ölkələrə çoxsaylı səfərlərim həyata keçirilmişdir. Təşkilata üzv ölkələrin dövlət və hökumət başçılarının da Azərbaycana bir çox səfərləri həyata keçirilmişdir və bu il də bu səfərlər nəzərdə tutulur. Yəni bu bir daha onu göstərir ki, biz düzgün yoldayıq.

Bu gün bizim aramızda ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsi də iştirak edir. Şimali Kipr türk qardaşlarımızı xüsusilə salamlamaq istəyirəm. Nazir burada müşahidəçi kimi, amma eyni zamanda öz bayrağı ilə təmsil olunur. Təbii ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır. Azərbaycan bütün türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur və çox sevindirici haldır ki, son Zirvə görüşündə Şimali Kipr Türk Dövlətləri Təşkilatına müşahidəçi seçilmişdir. Bu münasibətlə bütün türk qardaşlarımızı ürəkdən təbrik edirəm. Bu bir daha bizim birliyimizi göstərir, bir daha iradəmizi göstərir. Onu göstərir ki, biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq.

Mən bir daha sizi salamlayıram. Sizə uğurlar, yaxşı nəticələr arzulayıram. Təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına mənim səmimi salamlarımı çatdırın.

❖ ❖ ❖

Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek ÖMÜRALİYEV** çıxış edərək dedi:

- Möhtərəm Prezident, sabahınız xeyir.

Hörmətli İlham Heydər oğlu, vaxt tapıb bizi qəbul etdiyiniz üçün Sizə nümayəndə heyəti adından və şəxsən öz adımdan təşəkkürümü bildirmək istəyirəm. Siz də öz çıxışınızda qeyd etdiyiniz kimi, bu, Sizin və dövlət başçılarının təşkilatımıza və fəaliyyətimizə diqqətinin göstəricisidir.

Kubanıçbek Ömüraliyev Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin əhəmiyyətinə toxundu. O, Azərbaycan Prezidentinin Türk Dövlətləri Təşkilatının fəaliyyətinə verdiyi dəstəyi xüsusi qeyd edərək bildirdi:

- Fürsətdən istifadə edərək, bir daha Sizə Türk Dövlətləri Təşkilatının fəaliyyətinə verdiyiniz ardıcıl dəstəyə görə təşəkkürümü bildirmək istəyirəm. Zati-aliləri, bütün dünyada sürətli dəyişikliklər, həmçinin mühüm hadisələr, qlobal və regional səviyyələrdə çağırışlar türk coğrafiyasında inteqrasiya üzrə əməkdaşlığı daha əhəmiyyətli, xalqlarımızı isə daha yaxın edir. Qardaş türk xalqları arasında münasibətlər böyük strateji əhəmiyyətə və potensiala malikdir. 2023-cü il fevralın 6-da qardaş Türkiyənin ərazisində baş vermiş dağıdıcı zəlzələlər zamanı biz şahidi olduq ki, təkcə dövlətlər deyil, həm də xalqlarımız ayağa qalxdı və qardaş Türkiyəyə görünməmiş həmrəylik nümayiş etdirdi və yardım göstərdi.

Kubanıçbek Ömüraliyev təbii fəlakət və fövqəladə hallarla mübarizədə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səyləri birləşdirməsinin vacibliyinə toxundu. Qonaq Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu ilin martında Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşünün keçirildiyini xatırladaraq həmin tədbirdə vacib qərarların qəbul edildiyini vurğuladı.

❖ ❖ ❖

Türkiyənin daxili işlər naziri **Ali YERLİKAYA** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident, əvvəlcə sıx qrafikinizdə vaxt ayırıb bizi qəbul etdiyiniz üçün təşəkkürlərimi bildirirəm.

Sizə cənab Prezidentimizin ən səmimi salamlarını gətirmişəm.

Bu gün burada - qardaş Azərbaycan torpaqlarında olmaqdan böyük məmnunluq duyuram. Hörmətli Prezidentimizin və zati-alinizin himayəsi ilə inkişaf edib güclənən əməkdaşlığımızın dünyada tayı-bərabəri yoxdur. Biz də Daxili İşlər Nazirliyi olaraq, Azərbaycanın qurumları ilə əməkdaşlığımızı səmimiyyət və təmənnasızlıq əsasında inşa etmişik. Bu müddətdə keçirdiyimiz görüşləri isə diplomatik təmasdan daha çox qardaşlıq həmrəyliyimizin bir ifadəsi olaraq görürük.

Hörmətli cənab Prezident, icazənizlə Qəhrəmanmaraş zəlzələlərində Can Azərbaycanımızın uzatdığı yardım əlini hüzurunuzda bir daha minnətdarlıqla yad etmək istəyirəm. Məlum olduğu kimi, çox böyük bir acını geridə qoymağa çalışırıq. Bu dövrdə zati-alinizin liderliyi ilə Azərbaycanın qardaş köməyi nəcib millətimiz tərəfindən heç vaxt unudulmayacaq. Yardımımıza ilk gələn Azərbaycan olduğu kimi, ən son ayrılan axtarış-xilasetmə heyətləri də yenə Azərbaycanın heyətləri olmuşdur. Bütün maddi və mənəvi dəstəklərini bizə çatdırmaq üçün səfərbər olan azərbaycanlı qardaşlarımıza minnətdarlığımızı nə qədər ifadə etsək, azdır.

Türkiyənin daxili işlər naziri təbii fəlakət və fövqəladə halların idarə edilməsi sahəsində həyata keçirdikləri fəaliyyət barədə məlumat verdi, Azərbaycanın aidiyyəti qurumları ilə əməkdaşlıqdan danışdı və bu əməkdaşlığı hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinə əsaslanaraq daha da gücləndirəcəklərini bildirdi. Qonaq Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Ankarada keçirilmiş fövqəladə Zirvə görüşünün önəmini qeyd edərək dedi:

- Hörmətli cənab Prezident, hüzurunuzda olmaqdan duyduğum məmnuniyyəti bir daha ifadə edir, bu sıx qrafikinizdə bizə vaxt ayırdığınız üçün təşəkkürlərimi bildirirəm. Həmçinin yaxınlaşmaqda olan Qarabağ zəfərimizin ildönümü münasibətilə qardaş Azərbaycanımızı təbrik edir, şəhidlik zirvəsinə yüksəlmiş bütün azərbaycanlı qardaşlarımızı rəhmət və minnətdarlıqla anıram. Sizə ehtiramımı ifadə edirəm, cənab Prezident.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV**: Çox sağ olun, təşəkkür edirəm.

Dövlətimizin başçısı Türkiyə Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

# Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan arasında əməkdaşlıq daha da genişləndirilməlidir



*Əvvəli 1-ci səh.*

Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda fəaliyyət istiqamətləri və ölkəmiz üçün prioritet sahələr, xüsusilə bərpaolunan enerji, nəqliyyat, logistika, kiçik və orta biznesin inkişafı sahələrində, Orta dəhliz istiqamətində əməkdaşlıq məsələləri müzakirə olundu.

Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi vurğulandı, Bankın ölkəmizin enerji və nəqliyyat layihələrinə, xüsusilə "Cənub qaz dəhlizi"nə ayırdığı kreditlərin vacibliyi qeyd olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin müdafiə sənayesinin müasir tələblərə uyğunlaşdırılması və ordunun hərbi-texniki təchizatının daxili istehsal hesabına təmin edilməsi, Azərbaycanın regionda silah istehsal edən əsas sənaye mərkəzlərindən birinə çevrilməsinə nail olunması, habelə bu sahədə fəaliyyət göstərən dövlət müəssisələrinin qabaqcıl korporativ idarəetmə təcrübəsi tətbiq edilməklə rəqabətədavamlılığının, maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılması, gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsi, vahid prinsiplər əsasında idarə olunması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Cəmiyyət silah istehsalının, ixracının, satışının təşkilini həyata keçirir, tabeliyində olan hüquqi şəxslərin vahid prinsiplər əsasında idarə edilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, onların maliyyə sabitliyinin və dayanıqlılığının yaxşılaşdırılması sahəsində işləri yerinə yetirir;

2.2. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 3 (üç) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.3. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi baş direktor həyata keçirir.

3. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "İqlim Elmi-İstehsalat Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Sənayecihaz" Elmi-İstehsalat Müəssisəsi Cəmiyyətin tabeliyinə verilsin.

4. Cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Cəmiyyətin yenidən təşkili və ləğvi;

4.1.2. Cəmiyyətin Müşahidə Şurasının və icra orqanının yaradılması;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Cəmiyyətin nizamnaməsinin təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

4.2.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Müşahidə Şurasının rəhbərinin və üzvlərinin, habelə icra orqanının rəhbərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2.3. Cəmiyyətin işçilərinin say həddinin və strukturunun müəyyən edilməsi;

4.3. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinə:

4.3.1. Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

4.3.2. Cəmiyyətin törəmə və asılı cəmiyyətlərinin yaradılmasına razılıq verilməsi;

4.3.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi.

5. Cəmiyyətin Müşahidə Şurasının səlahiyyətləri aşağıdakılardır:

5.1. Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;

5.2. Cəmiyyətin əməkhaqqı sistemini müəyyən etmək, xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarəti həyata keçirmək;

5.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına dair ümumi yığıncağa təkliflər vermək;

5.4. Cəmiyyətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti, daxili qaydaları, habelə filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq etmək;

5.5. bu Fərmanın 4-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Cəmiyyətin nizamnaməsi və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. iki ay müddətində:

6.1.1. Cəmiyyətin yaradılması ilə əlaqədar "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun və digər normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.1.2. Cəmiyyətin nizamnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

6.1.3. Cəmiyyətin işçilərinin say həddini və strukturunu müəyyən etsin;

6.2. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin, onun strukturuna daxil olan qurumların və tabeliyində olan hüquqi şəxslərin balansında olan və Cəmiyyətin fəaliyyəti üçün zəruri olan dövlət əmlakının inventarizasiyasını apararaq, həmin dövlət əmlakının Cəmiyyətin balansına verilməsi ilə bağlı beş ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

8. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 740; 2008, № 1, maddə 6; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyul tarixli 2234 nömrəli və 19 avqust tarixli 2308 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

8.1. 10-cu hissəyə "nazirliyin" sözündən əvvəl ", habelə strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.)" sözləri əlavə edilsin;

8.2. 14.4-cü bəndə "tabeliyində" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin;

8.3. 14.5-ci bəndə "nazirliyin" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin;

8.4. 14.6-cı bənddə "Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən siyahıya əsasən müəyyən edilmiş müəssisələr" sözləri "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2023-cü il*

# F.F.Xəlilovanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Flora Fətula qızı Xəlilova "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2023-cü il*

# Elçin ƏMİRBƏYOV: "Azərbaycanın suveren ərazisində fəaliyyət göstərən separatçı qurum hazırkı humanitar böhranın əsas günahkarıdır"



**Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanması üçün proses gedir və Avropa İttifaqı, xüsusilə də Prezident Şarl Mişel bu prosesə dəstək göstərir. Lakin Ermənistan bütün dünyada Azərbaycanı günahlandırmaq taktikasını seçərək, sülh prosesində iştirak görüntüsü yaratmağa, status-kvonu saxlamağa və danışıqlarda tərəqqi əldə olunmadığı halda bütün günahı Azərbaycan tərəfinin üzərinə qoymağa çalışır. Lakin Azərbaycan tərəfi sülh prosesinə sadiqdir, Ermənistana sülh müqaviləsi, sərhədlərin delimitasiyası və kommunikasiyaların yenidən açılmasını təklif edib. Hansısa güzəştə heç bir vəchlə razı olmayan və Azərbaycanın suveren ərazisində fəaliyyət göstərən separatçı qurum hazırkı humanitar böhranın əsas günahkarıdır. Azərbaycan və digər təşkilatların əraziyə humanitar yardım çatdırmasının qarşısını alan da məhz həmin separatçılardır.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə xüsusi nümayəndəsi Elçin Əmirbəyovun Almaniyanın **"Deutsche Welle"** telekanalı üçün müsahibəsində yer alıb. Azərbaycanın Qarabağ regionunda humanitar vəziyyət və guya Laçın yolunun bağlanması ilə əhalinin ac qalması barədə suala aydınlıq gətirən Azərbaycan rəsmisi bildirib ki, ilk növbədə, Ermənistanın Azərbaycanın 20 faiz ərazisini 30 il ərzində işğalda saxladığını nəzərə almaq lazımdır. Həmçinin Laçın yolunun blokadada olması da doğru fikir deyil, çünki hər iki istiqamətdə Qırmızı Xaç Komitəsinin vasitəsilə insanların hərəkəti, dərman və s. daşınması təmin olunursa, bu zaman blokadadan danışmaq mümkün deyil. Buna baxmayaraq Qarabağda yaşayan insanlar bir qrup separatçının girovuna çevrilib.

Azərbaycan Qarabağdakı əhali ilə ünsiyyət və onların Azərbaycan cəmiyyətinə inteqrasiyasına hazırdır. Laçında məhdud keçid var, Azərbaycan bu vəziyyətə yenidən baxa bilər, eyni zamanda separatçılar əraziyə yüklərin çatdırılması üçün başqa yollardan istifadəyə qarşı çıxmamalıdırlar. Onların Ağdam yolundan imtinasına dair fikri ilə heç də hamı razı deyil.

E.Əmirbəyov qeyd edib ki, Azərbaycan ABŞ, Rusiya və digər ölkələrlə həll yollarının tapılması üzərində işləyir. Əsas iş sülh razılaşmasını əldə etmək, sərhədlərin delimitasiyasına nail olmaqdır. Lakin, təəssüf ki, bütün proses Ermənistanın atdığı addımların əsirinə çevrilir. Aydın olmalıdır ki, yeganə sülh yolu Bakı ilə əməkdaşlıq etməkdən keçir.

Guya Qarabağdakı erməni əhalinin genosidə məruz qalmasına dair suala cavab verən E.Əmirbəyov qeyd edib ki, məsələyə beynəlxalq hüquq aspektindən baxılmalıdır və ərazidə baş verənlər bu tip sözlərin əsassız şəkildə istifadə edildiyini göstərir. Sülhün əldə olunması üçün yeganə yol hər iki tərəfin öhdəliklərini yerinə yetirməsindən keçir və Azərbaycan bu prosesi bütün istiqamətlər üzrə aparır. Lakin Ermənistan üçtərəfli Bəyanatın bəzi maddələrini hələ də icra etmir, on min hərbçi və ağır hərbi texnikasını Azərbaycan ərazisindən çıxarmır, eləcə də Azərbaycan ərazilərini minalayır. Müharibə cinayətlərində günahkar olan Ermənistan sözdə deyil, əməldə iş görməli, Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır.

Müsahibədə həmçinin bildirilib ki, nə qədər separatçılar, Ermənistan ordusu Qarabağda qalır, Azərbaycan üçün təhlükə davam edəcəkdir və dünyanı qondarma humanitar böhranla aldatmaq lazım deyil. Aİ öz fəaliyyətini gücləndirməlidir, çünki əslində, bu il sülh müqaviləsi üzərində işi bitirmək lazım idi, lakin indi əsas fəaliyyət erməni yalanlarını neytrallaşdırmaq və həqiqətin nədən ibarət olduğunu göstərməkdən ibarətdir.

E.Əmirbəyov qeyd edib ki, erməni tərəfi istər Ermənistan ərazisindən, istərsə də Qarabağda tez-tez atəşkəsi pozur, sərhəddə təxribatlar törədilir. Azərbaycan regionda müharibə istəmir və dünyanın diqqəti sülh prosesinə yönəlməlidir. Ermənistanın saxta təbliğatı, manipulyasiyası və beynəlxalq təşkilatlardan alət kimi istifadəsinə son qoyulmalıdır.

# Bakıda TDT ölkələri nazirlərinin ikinci iclası keçirilib









**Sentyabrın 7-də Bakı Konqres Mərkəzində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclası Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov açaraq TDT çərçivəsində reallaşan tədbirin təşkilata üzv və müşahidəçi ölkələrin fövqəladə halların idarə edilməsi üzrə müvafiq dövlət qurumları arasında faydalı əməkdaşlığa yeni təkan verəcəyinə əminliyini ifadə edib.

Nazir türk dövlətləri liderlərinin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində ölkələrimiz arasında hərtərəfli münasibətlərin ildən-ilə sürətlə genişləndiyini vurğulayıb. Ölkələrimiz arasında sıx inteqrasiya prosesləri qarşılıqlı əlaqələri əhəmiyyətli dərəcədə genişləndirib, Türk dünyasının birliyini, gücünü, qüdrətini artırıb. Bu ilin fevral ayında qardaş Türkiyədə baş vermiş və bütün Türk dünyasını sarsıtmış dağıdıcı zəlzələni xatırladan Kəmaləddin Heydərov dəhşətli təbii fəlakətlə mübarizədə türk dövlətlərinin dəstəyini ölkələrimiz arasında həmrəyliyin bariz nümunəsi adlandırıb.

Qeyd edilib ki, bu çərçivədə fövqəladə hallarla mübarizə üzrə ölkələrimizin aidiyyəti dövlət qurumları arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar mövcuddur. Təbii və texnogen xarakterli fövqəladə halların getdikcə geniş vüsət aldığı müasir dünyada ölkələrimizin fövqəladə hallarla koordinasiyalı mübarizəsinin əhəmiyyətini qeyd edən nazir K.Heydərov TDT-yə üzv və müşahidəçi ölkələrin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclası və iclas çərçivəsində yekun müzakirəsi keçiriləcək "Türk Dövlətləri Təşkilatının Mülki Müdafiə Mexanizminin yaradılması haqqında Saziş"in qurumlar arasında əlaqələrin daha da genişlənməsinə mühüm töhfə verəcəyinə əminlik ifadə edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik rəhbərliyi ilə 44 gün ərzində Azərbaycanın şanlı Ordusu tərəfindən Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı dədə-baba torpaqlarımızın azad edildiyini, ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğunu qürur hissi ilə qeyd edən nazir FHN-in qüvvələri tərəfindən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən minatəmizləmə fəaliyyətinə də toxunub.

TDT-nin baş katibi Kubanıçbek Ömüraliyev TDT-yə üzv və müşahidəçi dövlətlərin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclasına Azərbaycan Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə Bakının evsahibliyi etməsinə görə təşəkkür edib. K.Ömüraliyev nazirlərin Bakı görüşünün təbii və texnogen xarakterli fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində türk xalqları və dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsinə növbəti təkan verəcəyinə əmin olduğunu deyib.

Türkiyənin daxili işlər naziri Ali Yerlikaya, Qazaxıstanın fövqəladə hallar naziri general-mayor Sırım Şaripxanov, Özbəkistanın fövqəladə hallar naziri general-mayor Abdulla Kuldaşev, Qırğızıstanın fövqəladə hallar naziri Boobek Ajikeev, Şimali Kipr Türk Respublikasının daxili işlər naziri Dursun Oğuz keçirilən tədbirin əhəmiyyətini vurğulayıb, irimiqyaslı fövqəladə hallarla mübarizə üzrə türk dövlətləri arasında koordinasiyalı fəaliyyətin vacibliyini qeyd ediblər.

İclasda "Türk Dövlətləri Təşkilatı Mülki Müdafiə Mexanizminin yaradılması haqqında Saziş" layihəsinin yekun müzakirəsi aparılıb.

Sonra Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclasının bəyannaməsi imzalanıb.

# Azərbaycan və Türkiyənin daxili işlər orqanları arasındakı faydalı işbirliyi yüksək qiymətləndirilib



**Sentyabrın 7-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Nazir Azərbaycanın Türkiyə ilə əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini, Ulu Öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun "Bir millət, iki dövlət" siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

Azərbaycanda mövcud olan sabitliyin əhəmiyyətini xüsusi qeyd edən nazir bildirib ki, asayişin və təhlükəsizliyin etibarlı qorunması vətəndaşlarımızın, xarici investorların, o cümlədən türkiyəli iş adamlarının ölkəmizin iqtisadiyyatına sərmayə qoymalarına və əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərmələrinə əlverişli şərait yaradıb.

Nazir Azərbaycan Polisinin və DİN-in Daxili Qoşunlarının respublikada ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə əldə etdiyi müsbət nəticələri də diqqətə çatdıraraq fəaliyyətin təkmilləşdirilməsinə Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin xüsusi rolunu və xidmətlərini məmnunluqla vurğulayıb və Ali Yerlikayanın şəxsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə təşəkkür edib.

Nazir Vilayət Eyvazov Türkiyənin daxili işlər nazirinin Azərbaycana ilk rəsmi səfərinin əlaqələrimizin inkişafına və dərinləşməsinə də müsbət təsir göstərəcəyinə əminliyini bildirib.

Görüşə, ətraflı məlumata və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər naziri respublikamıza səfərindən, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən məmnunluğunu ifadə edib.

O həmçinin iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə olunub.

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin iştirakı ilə "Bakı 2023" beynəlxalq təlimi olub









**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin fövqəladə halların idarə edilməsi üzrə cavabdeh qurumlarına məxsus xilasetmə qüvvə və vasitələrinin iştirakı ilə "Bakı 2023" beynəlxalq təlimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, təlimdə Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, TDT-nin baş katibi Kubanıçbek Ömüraliyev, Türkiyənin daxili işlər naziri Ali Yerlikaya, Qazaxıstanın fövqəladə hallar naziri general-mayor Sırım Şaripxanov, Özbəkistanın fövqəladə hallar naziri general-mayor Abdulla Kuldaşev, Qırğızıstanın fövqəladə hallar naziri Boobek Ajikeev, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Baş direktoru Taleh Ziyadov, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin İcraçı direktoru Vüqar Qurbanov, Şimali Kipr Türk Respublikasının daxili işlər naziri Dursun Oğuz, həmçinin Azərbaycanın Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Dövlət Sərhəd Xidməti, "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbər vəzifəli şəxsləri də iştirak ediblər.

Təlim irimiqyaslı fövqəladə hallar zamanı TDT-yə üzv ölkələrin fövqəladə halların idarə edilməsinə cavabdeh qurumlarının xilasetmə qüvvə və vasitələrinin birgə fəaliyyət mexanizminin həyata keçirilməsi, real imkanlarının müəyyən edilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi və bununla bağlı qərargahların əməliyyat hazırlığının yüksəldilməsi, irimiqyaslı fövqəladə hadisələr zamanı qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması, qarşılıqlı fəaliyyət və hərtərəfli təminatın təşkili məqsədilə keçirilib.

Əvvəlcə təlimdə iştirak edən xilasetmə qurumlarının texnika və avadanlıqlarına baxış keçirilib.

Sonra təlim qərargahında TDT-yə üzv ölkələrin fövqəladə halların idarə edilməsinə məsul qurumlarının böhranların idarə edilməsi üzrə mərkəzləri ilə videorabitə vasitəsilə əlaqə yaradılıb, aidiyyəti qurumlar tərəfindən təlimlə bağlı görülən işlər barədə məruzələr edilib.

Sonra təlimin praktiki hissəsinə başlanılıb. Təlim planına uyğun olaraq episentri Xəzər dənizində olmaqla, Bakı şəhərindən 110 kilometr cənub-şərqdə şərti dağıdıcı zəlzələ baş verib. Şərti zəlzələ nəticəsində bir sıra şəhər və rayonlarda hündürmərtəbəli binalar və sənaye müəssisələrində dağıntılar yaranıb, infrastruktur şəbəkələri sıradan çıxıb. Vətəndaşlar arasında ölənlərin və dağıntılar altında qalanların olduğu bildirilir.

Şərti hadisə ilə əlaqədar Azərbaycan Fövqəladə Hallar Nazirliyinin qüvvələri tərəfindən aidiyyəti dövlət qurumları ilə koordinasiyalı şəkildə dərhal axtarış-xilasetmə, zəlzələ nəticəsində yaranmış yanğınların söndürülməsi və digər zəruri və təxirəsalınmaz tədbirlərin görülməsinə başlanılır.

Dağıntıların miqyası nəzərə alınaraq yardım üçün edilən müraciət əsasında TDT-yə üzv ölkələrin müvafiq qurumlarının qüvvələri hadisə bölgəsinə göndərilir və yerli qurumlarla birgə zəlzələnin nəticələrinin aradan qaldırılması əməliyyatı icra olunur.

Uğurla reallaşdırılan təlimdə qarşıya qoyulan məqsədlərə nail olunub.

Sonda Azərbaycanın Dövlət bayrağı və TDT-nin bayrağı ilə təlim ərazisi üzərindən uçan FHN-in Aviasiya dəstəsinin və Türkiyə Respublikasının təlimdə iştirak edən helikopterlərinin paradı keçirilib.

Qeyd edək ki, təlimdə TDT ölkələrinin aidiyyəti qurumlarının ümumilikdə 8 helikopteri və 1 amfibiya təyyarəsi, 245 xüsusi təyinatlı texnikası, 6 xüsusi təlim görmüş iti və 1180 nəfərdən ibarət canlı qüvvəsi iştirak edib. Həmçinin təlimdə Azərbaycanın FHN ilə yanaşı, Daxili İşlər Nazirliyi, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi, "Azərbaycan Dəmir Yolları" və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının qüvvələri də iştirak ediblər.

# Nazir Kəmaləddin Heydərov Türkiyənin daxili işlər naziri Ali Yerlikaya ilə görüşüb



**Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclasında iştirak etmək üçün ölkəmizə səfərə gəlmiş Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Fövqəladə Hallar Nazirliyində keçirilən görüşdə nazir K.Heydərov iki qardaş ölkə arasında münasibətlərin prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın birgə səyi və siyasi uzaqgörənliyi sayəsində strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini və bu əməkdaşlığın bütün sahələrdə ildən-ilə genişləndiyini diqqətə çatdırıb.

Bildirilib ki, həm 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana qardaş Türkiyə tərəfindən ən yüksək səviyyədə mənəvi və siyasi dəstəyin verilməsi, həm də 2021 və 2022-ci ilin yayında Türkiyədə baş vermiş meşə yanğınları ilə mübarizə zamanı, həmçinin bu ilin fevral ayında qardaş ölkədəki dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılması və axtarış-xilasetmə işlərində Azərbaycanın göstərdiyi həmrəylik qardaşlıq münasibətlərinin bariz nümunəsidir.

Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır" müdrik kəlamını xatırladan nazir bu istiqamətdə qarşılıqlı fəaliyyətin və təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb. Bu çərçivədə K.Heydərov qardaş ölkənin nümayəndə heyətinin Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin Bakıda keçirilən Fövqəladə halların idarə edilməsi üzrə nazirlərin ikinci iclasında, habelə iclas çərçivəsində təşkil olunan beynəlxalq təlimdə Fövqəladə Halların İdarə olunması Agentliyinin (AFAD) qüvvələrinin iştirakının yüksək qiymətləndirildiyini qeyd edib.

Nazir diqqətə çatdırıb ki, Azərbaycan Fövqəladə Hallar Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq Türkiyənin aidiyyəti dövlət strukturları ilə əməkdaşlıq əlaqələri daim genişlənməkdədir. Türkiyə daxili işlər nazirinin ölkəmizə səfərinin qurumlar arasında mövcud sıx əməkdaşlıq münasibətlərinin daha da inkişaf etməsinə xüsusi töhfə verəcəyinə əminlik ifadə olunub. Ölkələrimizin müvafiq qurumları arasında ikitərəfli əməkdaşlıq çərçivəsində Azərbaycan FHN-in Beynəlxalq Axtarış-xilasetmə Dəstəsinin BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin Beynəlxalq Axtarış-xilasetmə Məşvərət Qrupunun (INSARAG) siniflədirilməsindən keçməsi və beynəlxalq humanitar əməliyyatlarda ölkəmizi layiqincə təmsil etməyə hazırlığının daha da yüksəldilməsi istiqamətində AFAD-la birgə təşkil edilən təlimlərin mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Səmimi görüşə görə təşəkkür edən Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya Türkiyədə baş vermiş təbii fəlakətlər, o cümlədən cari ilin fevral ayındakı dağıdıcı zəlzələ zamanı Azərbaycanın göstərdiyi qardaşlıq dəstəyini xatırladıb. İki ölkənin fövqəladə hallarla mübarizə üzrə uyğun qurumları arasında əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyətini qeyd edən türkiyəli nazir Bakıda təşkil edilmiş Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclasının istər ikitərəfli, istərsə də çoxtərəfli formatda münasibətlərin möhkəmlənməsinə xidmət etdiyini vurğulayıb. Bu mənada, iclas çərçivəsində təşkil olunmuş beynəlxalq təlimin gələcəkdə baş verə biləcək irimiqyaslı fövqəladə hadisələrlə birgə koordinasiyalı mübarizə üçün mühüm töhfə verəcəyinə əminlik ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər geniş müzakirə edilib.

Görüşdən sonra türkiyəli nazir FHN-in Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin əməliyyat zalının fəaliyyəti ilə yerində tanış olub.

# Ceyhun Bayramov Rusiya XİN rəhbərinin xüsusi nümayəndəsi ilə regiondakı vəziyyəti müzakirə edib



**Sentyabrın 7-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.**

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Ermənistan arasında sülh prosesi, habelə regionda mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Ermənistan tərəfinin sülh gündəliyinə xələl gətirən, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş bəyanat, ritorika və təxribatlarının regionda davamlı sülhün bərqərar edilməsinə yönələn səy və təşəbbüslərə xələl gətirdiyini diqqətə çatdırıb. Ölkəmizin Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə sadiqlik nümayiş etdirməsinə baxmayaraq, Ermənistanın ölkəmizin daxili işlərinə qarışmasının qəbuledilməz olduğu vurğulanıb.

Ermənistanın regionda "gərgin humanitar vəziyyət" və "blokada" olması ilə bağlı əsassız iddialar irəli sürməsi fonunda "Ağdam-Xankəndi" yolunun açılması ilə paralel olaraq Laçın yolundan istifadənin intensivləşməsi təklifinin rədd olunmasının vəziyyətin heç də humanitar deyil, əksinə, siyasi xarakterli olduğunu göstərdiyi bildirilib.

Xüsusilə Ermənistan tərəfindən ölkəmizə qarşı siyasi və hərbi təxribatların artdığı bir şəraitdə bu kimi addımların beynəlxalq ictimaiyyət tərəfindən qınanılmasının vacibliyi vurğulanıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın XİN rəhbərinin ABŞ dövlət katibinin köməkçisi ilə telefon danışığı olub





**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kim arasında telefon danışığı baş tutub. Telefon danışığı zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, regionda mövcud vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi müzakirə olunub.**

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, C.Bayramov bölgədə cari vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandıraraq, Ermənistanın Azərbaycana qarşı hərbi-siyasi təxribatlarının, vəziyyəti təhrif edən manipulyasiyalarının artması fonunda bu ölkənin beynəlxalq ictimaiyyəti yanlış yönləndirməyə istiqamətlənən propaqandasının reallıqları əks etdirmədiyini diqqətə çatdırıb.

Bölgədə guya "çətin humanitar vəziyyət" və "blokada"nın mövcudluğu ilə bağlı əsassız iddialar bəhanəsi ilə ölkəmizin daxili işlərinə, o cümlədən Qarabağ bölgəsində yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyası səylərinə müdaxilələrin qəbuledilməz olduğu diqqətə çatdırılıb.

Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə Ağdam-Xankəndi yolundan istifadə etməklə erməni sakinlərə yüklərin daşınması, buna paralel olaraq Laçın yolundan istifadənin intensivləşməsi barədə əldə edilmiş razılıqların Ermənistan və onun yaratdığı qondarma rejim tərəfindən son anda pozulmasının yaranmış vəziyyətin humanitar deyil, siyasi manipulyasiya olduğunu göstərdiyi bildirilib.

Postmünaqişə dövründə bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində yaranmış tarixi şansın əldən verilməməsi üçün beynəlxalq ictimaiyyət tərəfindən Ermənistanın təxribatçı addımlarının, o cümlədən Azərbaycan ərazilərində yaradılmış qondarma rejimi dəstəkləyən bəyanatlarının kəskin pislənməsi və qınanmasının zəruriliyi vurğulanıb.

Ermənistan tərəfinin sülh prosesini təhdid altında qoyan bəyanat və addımlarına baxmayaraq, normallaşma gündəliyinin irəli aparılmasında qərarlı olduğumuz, lakin bunun mövqeyimizə sadiqliyimizin, ərazi bütövlüyümüz və suverenliyimizə qarşı yönələn hər hansı təhdidin qarşısını almaq hüququmuza xələl gətirmədiyi diqqətə çatdırılıb.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Heydər Əliyev İli 2023

## "DOST 2023: çevik, innovativ və davamlı xidmətlərin göstərilməsi üçün vahid platforma" adlı beynəlxalq konfrans keçirilir





**Ümummilli Lider Heydər Əliyevin 100 illiyi və Dayanıqlı və Operativ Sosial Təminat - DOST Agentliyinin yaradılmasının 5 illiyi münasibətilə Azərbaycanda ilk dəfə sosial xidmətlər sahəsində "DOST 2023: çevik, innovativ və davamlı xidmətlərin göstərilməsi üçün vahid platforma" adlı beynəlxalq konfrans öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən və iki gün davam edəcək konfransda 50 xarici, 110 yerli qonaq, eləcə də 40 beynəlxalq təşkilat iştirak edir.

Tədbir DOST Agentliyinin 5 illiyinə həsr olunan videoçarxın nümayişi ilə başlayıb.

Konfransda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ötən əsrin 90-cı illərində müstəqil Azərbaycan dövlətini quraraq uzunmüddətli inkişaf yoluna səfərbər edən Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu sosial inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən mükəmməl islahatlarla davam və inkişaf etdirildiyini diqqətə çatdırıb.

Nazir dövlət başçımızın tapşırıqları ilə son beş ildə 4 sosial islahat paketi icra olunduğunu, həmin islahatlar üzrə ayrılan əlavə illik vəsaitin 7 milyard manata çatdığını, sosial ödənişlərdəki ciddi artımları, dövlət sosial xidmətlərinin geniş miqyasda elektronlaşdırılması istiqamətində uğurları diqqətə çatdırıb.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyasının son illər aparılan sosial islahatların mühüm nailiyyətlərindən olduğu vurğulanıb. Bildirilib ki, DOST mərkəzlərində 159 xidmət "bir pəncərə"dən, innovativ texnologiyalarla, modern və çevik, tam şəffaf mexanizmlər üzərində təqdim edilir və DOST ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb.

Qeyd olunub ki, 2019-cu ildən DOST Agentliyi və 7 DOST mərkəzi, işğaldan azad olunmuş Zəngilanın Ağalı kəndində ilk Smart DOST Xidmət məntəqəsi açılıb. DOST mərkəzlərində ötən dövrdə 1 milyon 730 min vətəndaşa xidmət göstərilib, həmin xidmətlərdən vətəndaş məmnunluğu 98,2 faizə çatdırılıb.

"Könüllü DOST" proqramının uğurlarından bəhs olunub. DOST konsepsiyasının beynəlxalq səviyyədə də yüksək dəyərləndirildiyi, DOST Agentliyinin 13 beynəlxalq mükafata və sertifikata (Avropa Sosial Şəbəkəsinin "Avropa Sosial Xidmətlər Mükafatı", Beynəlxalq Sosial Təminat Assosiasiyasının 3 mükafatı, Mükəmməllik Sertifikatları və s.) layiq görüldüyü, bir çox ölkələrin DOST təcrübəsini tətbiq etməyə maraq göstərdiyi vurğulanıb. Ümumilikdə, Azərbaycanda son beş ildə aparılan sosial islahatların uğurlarının təkcə keçən il və bu ilin ötən dövründə 40-a yaxın beynəlxalq mükafat və sertifikatla təltif edildiyi bildirilib.

Avropa Sosial Şəbəkəsinin sədri Kristian Fillet öz çıxışında Azərbaycanda dövlət büdcəsindən sosial sahəyə ayrılan vəsaitin mütəmadi şəkildə artırılmasını təqdirəlayiq hesab edib. Bildirib ki, bu, əhaliyə daha yaxşı sosial xidmətlərin göstərilməsinə imkan yaradır. Texnologiya və innovasiyalar isə sosial xidmətlərin daha keyfiyyətli və əlçatan olmasına kömək edir.

Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev on bir il bundan əvvəl Prezident İlham Əliyev tərəfindən idarəetmə sahəsində ciddi islahatların tərkib hissəsi olaraq ilk dəfə "ASAN xidmət" konsepsiyasının əsasının qoyulduğunu, burada əsas məqsədin dövlət xidmətlərinin hər bir vətəndaşa əlçatan, şəffaf, sıfır bürokratiya və çevikliklə həyata keçirilməsi olduğunu deyib.

Həmin konsepsiyanın islahat olaraq özünü doğrultduğunu bildirən agentliyin sədri indiyədək "ASAN xidmət" mərkəzlərinin 63 milyondan çox müraciət qəbul etdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, hər gün 40 mindən çox vətəndaşın müraciəti qəbul olunur və xidmətlərdən məmnunluq səviyyəsi 99 faizin üzərindədir.

Bütün dünyada sosial təminatın aktuallığının getdikcə artdığını deyən BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva fikirlərinə belə davam edib: "Qeyri-bərabərliyin artması fonunda əhalinin bütün təbəqələrinin sosial təminata əlçatanlığı əsas hədəflərdəndir. Ona görə də maliyyə və insan resursları artırılmalı və elə sistem qurulmalıdır ki, vaxtında və innovativ xidmətlər həyata keçirilsin. Vahid platformanın olması isə sosial xidmətlərin təminatına xüsusi təsir edir".

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov bildirib ki, bu gün dövlət xidmətlərinin böyük hissəsi hələ də rəqəmsal formada təqdim olunmur. Yalnız 45 faiz xidmətlər rəqəmsal hökumət platformasında birləşdirilib. Burada da standartlar fərqli olduğundan və vətəndaşlara istifadə çox da əlçatan olmadığına görə yenilənmə aparılır və bir standartlara, bir platformaya cəmləşmə prosesi gedir.

Konfrans iki plenar və üç paralel iclasdan ibarət olmaqla yerli və beynəlxalq ekspertlərin müxtəlif mövzularda təqdimat, panel müzakirəsi və çıxışları ilə davam edir.

# Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əlaqələrin inkişafı müzakirə olunub

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) birinci vitse-prezidenti Yurgen Rigterink ilə görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə bankla əlaqələrin mövcud vəziyyəti, həyata keçirilən birgə layihələr və əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın AYİB-lə müxtəlif istiqamətlər üzrə uğurlu əlaqələri vurğulanıb, ölkəmizin sosial-iqtisadi prioritetləri barədə məlumat verilib. Qeyd olunub ki, qarşıya qoyulmuş inkişaf hədəflərinin reallaşdırılması istiqamətində əməkdaşlıq imkanları genişdir. Bu kontekstdə bankla "yaşıl" iqtisadiyyat, enerji, xüsusilə bərpa olunan və alternativ enerji, özəl sektorun inkişafı, infrastruktur və digər istiqamətlər üzrə prioritet layihələrin icrası məqsədilə atılacaq addımlar müzakirə edilib.

AYİB-in birinci vitse-prezidenti Yurgen Rigterink Bankın ölkəmizlə səmərəli əməkdaşlığını qeyd edib, Azərbaycanın iqtisadi potensialının əlaqələrin genişlənməsinə əlverişli zəmin yaratdığını və qurumun Azərbaycan iqtisadiyyatının inkişafını dəstəkləməyə davam etmək niyyətini ifadə edib.

Tərəflər Azərbaycan-AYİB əlaqələrinin mövcud vəziyyəti, həyata keçirilən birgə layihələr və əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıblar.

# "Yaşıl Enerji Dəhlizi"ni Avropa Komissiyası dəstəkləyir

**Energetika naziri Pərviz Şahbazov Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) birinci vitse-prezidenti Yurgen Rigterinkin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Bankla enerji sahəsində çoxistiqamətli əməkdaşlıq yüksək qiymətləndirilib. Bu sahədə Azərbaycan-AYİB əməkdaşlığının genişləndirilməsi imkanları, həmçinin Bankın maliyyə dəstəyi ilə həyata keçirilən layihələr barədə müzakirələr aparılıb. Bu xüsusda, AYİB-in dəstək layihələri çərçivəsində bərpa olunan enerji üzrə hərracların keçirilməsi və "Energetika və kommunal xidmətlər sahəsində tənzimləyici haqqında" qanun layihəsinin hazırlanması ilə bağlı proseslərin gedişatı barədə məlumat verilib. "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi" Qaydasının təsdiq olunması mühüm irəliləyişlərdən biri kimi vurğulanıb. Həmçinin ölkəmizdə bərpa olunan enerji güclərinin reallaşdırılması və enerji sisteminə inteqrasiyası ilə əlaqədar elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi məqsədilə aparılan tədqiqatlardan bəhs edilib. Bankla bu istiqamətdə əməkdaşlığa dair geniş fikir mübadiləsi aparılıb.

Görüşdə 240 MVt gücündə "Abşeron-Xızı" Külək-Elektrik Stansiyası, "Xəzər-Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi" layihələrinin icrası ilə bağlı son vəziyyət də nəzərdən keçirilib. "Yaşıl Enerji Dəhlizi"nin Avropa Komissiyası tərəfindən dəstəkləndiyi və Avropa maliyyə institutlarının layihədə iştiraka maraq göstərdikləri qeyd edilib. Söhbət zamanı "Cənub qaz dəhlizi"nin genişləndirilməsi layihəsində AYİB ilə əməkdaşlıq perspektivləri, eləcə də ötən ilin dekabrında imzalanmış "Azərbaycan Respublikasının elektroenergetika sektorunun inkişafı ilə bağlı texniki dəstəyə dair Anlaşma Memorandumu"ndan irəli gələn digər məsələlər müzakirə olunub.

# Bakı Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirlərinin 2-ci toplantısına evsahibliyi edəcək

**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Özbəkistanda rəsmi səfərdədir. Səfər çərçivəsində nazir Məcnun Məmmədov və Özbəkistanın kənd təsərrüfatı naziri Əziz Voitov arasında ikitərəfli görüş keçirilib.**

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Özbəkistan prezidentlərinin qarşılıqlı rəsmi səfərlər zamanı iki ölkə arasında əməkdaşlığın gücləndirilməsi ilə bağlı qarşıya qoyduqları tapşırıqların yerinə yetirilməsi, əməkdaşlığın gələcək fəaliyyət istiqamətləri ətrafında müzakirələr aparılıb.

Bildirilib ki, iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Hər iki ölkə bütün sahələrdə əməkdaşlığı gücləndirmək istiqamətində təşəbbüsləri dəstəkləyir.

Görüşdə Azərbaycanla Özbəkistan arasında hazırlanan Kənd Təsərrüfatı sahəsində Əməkdaşlıq üzrə Yol Xəritəsinin icrası ətraflı müzakirə olunub. Tərəflər əsas əməkdaşlıq istiqamətlərinin Yol Xəritəsi üzrə müəyyənləşdirilməsinin təqdirəlayiq olduğunu vurğulayıblar.

Azərbaycanla Özbəkistan arasında kənd təsərrüfatının ipəkçilik, fındıqçılıq, şərabçılıq, kənd təsərrüfatı maşınqayırması və digər sahələrdə ən qısa zamanda konkret addımların atılması ilə bağlı razılıq əldə olunub. Eyni zamanda, görüşdə sentyabrın 26-da Bakıda keçiriləcək Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirlərinin 2-ci toplantısı və "Aqrobiznes forumu" tədbiri ilə bağlı məsələlər də müzakirə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

# Avropa Sosial Şəbəkəsi ölkəmizdə aparılan sosial islahatları yüksək dəyərləndirir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində "DOST 2023: çevik, innovativ və davamlı xidmətlərin göstərilməsi üçün vahid platforma" adlı beynəlxalq konfransda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Avropa Sosial Şəbəkəsinin sədri Kristian Fillet ilə görüş olub.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev son illər Azərbaycanda aparılan sosial islahatların uğurlarını qeyd edib, islahatlar prosesində Avropa Sosial Şəbəkəsi ilə fəal əməkdaşlığa xüsusi önəm verildiyini vurğulayıb. Qeyd olunub ki, 1999-cu ildə təsis edilmiş, hazırda 34 ölkədən 200-ə yaxın üzv təşkilatla işləyən Avropa Sosial Şəbəkəsi dövlət sosial xidmətlərinin keyfiyyətini artırmaq məqsədinə xidmət edən, sosial sahədə məlumat və uğurlu təcrübələrin mübadiləsi üçün nüfuzlu beynəlxalq platformadır. DOST konsepsiyası da Avropa Sosial Şəbəkəsi tərəfindən "Avropa Sosial Xidmətlər Mükafatı" ilə təltif edilib. Həmçinin DOST Agentliyinin bir sıra layihələri təşkilatın müsabiqələrinin finalçısı olub.

Avropa Sosial Şəbəkəsi öz internet platformasında, virtual qəzetində müntəzəm olaraq DOST Agentliyinə dair məlumatlar təqdim edir. Nazirliyin qurumlarından DOST Agentliyi 2021-ci ildən, Dövlət Məşğulluq Agentliyi isə 2023-cü ildən Avropa Sosial Şəbəkəsinin üzvləridir.

K.Fillet Azərbaycanda son illər həyata keçirilən sosial islahatları, DOST konsepsiyasının nailiyyətlərini maraqla izlədiklərini, bu uğurları, sosial sahəyə ayrılan vəsaitlərdə mütəmadi artımları, sosial xidmətlər sistemində müasir texnologiyaların geniş tətbiqini yüksək dəyərləndirdiklərini bildirib.

Görüşdə gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan gəncliyinin formalaşmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri var





**Müdrik xalqımız Heydər Əliyevin qurucu, yaradıcı, təşəbbüskar ruhuna, Vətəninə olan sonsuz məhəbbətinə, qətiyyətli, qorxmaz iradəsinə ötən əsrin 70-ci illərindən yaxşı bələd idi. Məhz bu səbəbdən 90-cı illərin əvvəllərində düşdüyü ağır böhrandan çıxmaq üçün xalqımız Heydər Əliyevi hakimiyyətə gətirdi. Nəticə isə bu gün ortadadır.**

Bütün sahələrdə dinamik inkişaf edən Azərbaycan regionun lideri, dünyada böyük söz sahibi olan qalib ölkədir. Heydər Əliyevin müəyyən etdiyi dövlətimizin gənclər siyasəti sağlam ruhlu, sağlam düşüncəli, Vətəninə və dövlətinə sadiq, mənəviyyatca zəngin gənclərin yetişməsinə mühüm zəmin yaradıb.

AZƏRTAC xəbər verir ki, bu barədə sentyabrın 7-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində keçirilən "Azərbaycan gəncliyinin formalaşmasında və inkişafında Heydər Əliyevin rolu" mövzusunda konfransda bildirilib.

Xaçmaz rayonunun Nabran kəndində yerləşən "Təhsil" istirahət mərkəzinin konfrans zalında təşkil olunan tədbirdə AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev, elm və təhsil nazirinin müşaviri Elnur Nəsibov, konfederasiyanın əməkdaşları, ölkəmizin ali təhsil müəssisələrinin tələbələri və fəal gənclər iştirak ediblər.

Öncə Azərbaycan dövlətinin qurucusu və banisi Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

AHİK sədri Səttar Möhbalıyev çıxış edərək Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu dövlətimizin gənclər siyasətindən danışıb, onun həm sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə, həm də müasir, müstəqil Azərbaycanın Prezidenti olarkən gənclərə göstərdiyi diqqət və qayğıdan bəhs edib.

"Heydər Əliyev Azərbaycan dövlətini yaratdı və bu gün siz gənclər həmin dövlətin xoşbəxt vətəndaşlarısınız. Ulu Öndər bu dövləti sizin üçün qurdu, bu yolda bütün mənalı ömrünü xərclədi və yalnız xalqı, Vətəni, banisi olduğu dövləti üçün yaşadı. Heydər Əliyev sovet Azərbaycanın rəhbərliyinə gələrkən ölkəmiz ittifaq səviyyəsində geri qalan respublikalardan biri idi. Onun müdrik rəhbərliyi Azərbaycanın böyük sosial-iqtisadi inkişafına yol açdı, respublikamız iri sənaye ölkəsinə çevrildi. Gənclərimiz də hər zaman Ulu Öndərin diqqət və qayğısı ilə əhatə olunmuşdu. Biz həmin vaxtın gəncləri olaraq bunu öz həyatımızda hiss edirdik. O çalışırdı ki, azərbaycanlı gənclər elmli olsun, müasir biliklərə yiyələnsinlər. Xarici Dillər İnstitutu, İnşaat Mühəndisləri İnstitutu, Naxçıvan Pedaqoji İnstitutu, Qarabağda Pedaqoji İnstitut Heydər Əliyevin təşəbbüsü ilə həmin dövrdə yaradıldı. Şəxsən onun təşəbbüsü ilə SSRİ-nin Moskva, Leninqrad, Kiyev və başqa ali məktəblərində oxumağa göndərilən tələbələrin sayı hər il artırdı. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması barədə təşəbbüsü isə onun polad iradəsini bir daha göstərdi", - deyə Səttar Möhbalıyev bildirib.

AHİK sədri vurğulayıb ki, 2003-cü ildən başlayaraq dövlətimizin başçısı İlham Əliyev gənclər siyasətinin inkişaf istiqamətini mövcud ənənələr əsasında daha da təkmilləşdirib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu gənclərin istedadının üzə çıxarılması istiqamətində fəal iş aparır. Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

"Azərbaycan həmkarlar ittifaqları dövlətimiz tərəfindən müəyyən olunan gənclər siyasətinə öz səlahiyyətləri çərçivəsində fəal dəstək verir. Həmkarlar ittifaqı üzvlərinin 38,5 faizini 29 yaşadək gənclər təşkil edir. Biz də gənclərin həmkarlar ittifaqlarının fəaliyyətində yaxından iştirakını yüksək qiymətləndiririk və onları həmkarlar ittifaqlarının gələcək inkişafının və daha da möhkəmlənməsinin əsas mənbəyi hesab edirik", - deyə AHİK sədri bildirib.

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev çıxışında "Heydər Əliyev İli" çərçivəsində ölkəmizdə, o cümlədən Xaçmazda təşkil olunan tədbirlərdən, həyata keçirilən layihələrdən danışıb, Ulu Öndərin xilaskarlıq missiyasından və gənclər siyasətindən söz açıb. O vurğulayıb ki, Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi hesab edən Ulu Öndər gənclərə diqqət göstərilməsini dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirib.

Elm və təhsil nazirinin müşaviri Elnur Nəsibov isə çıxışında Ulu Öndərin təhsil siyasətindən, bu sahə üzrə keçirdiyi islahatlardan, əsasən peşə təhsilinin inkişafına verdiyi töhfələrdən bəhs edib.

Sonra Vətən müharibəsi qazisi, İqtisad Universitetinin tələbəsi Xəyyam Qədiməliyev və Nigar Hüseynzadə, Dillər Universitetinin tələbəsi Zeynəb Salmanova, Memarlıq və İnşaat Universitetinin tələbəsi Leyla Məmmədli, Bakı Mühəndislik Universitetinin tələbəsi Səbuhi Rüstəmov, Neft və Sənaye Universitetinin tələbəsi Rəşid Əliyev və digərləri çıxış edərək Ümummilli Liderin milli dövlətçilik siyasətindən, ölkəmizin iqtisadi müstəqilliyinin təmin olunması istiqamətində atdığı addımlardan, ordu quruculuğundan, onun müdrik rəhbərliyi sayəsində ölkəmizin qazandığı fundamental nailiyyətlərdən, həmçinin hazırda Azərbaycanda gənclərin inkişafı üçün yaradılmış şəraitdən və 44 günlük Vətən müharibəsində gənclərin rəşadətindən danışıblar.

Sonda AHİK sədri tələbələrə bir sıra tövsiyələr verib və növbəti tədris ilində uğurlar arzulayıb.



Heydər Əliyev İli 2023



# Azərbaycanın milli dövlət ideologiyasının müəllifi

**XXI əsrin tarixi ideologiyaların cəmiyyət həyatındakı rolunu əhəmiyyətsiz göstərməyə çalışan, xalqların ideologiyasız dövrə daxil olduqlarını əsaslandırmaq üçün bir sıra müddəalar irəli sürən, "ideologiyaların sonu"nun çatdığını elan edən alimlərin öz baxışlarında haqsız olduqlarını göstərdi. Reallıqlar sübuta yetirdi ki, heç bir cəmiyyət ideologiyasız yaşaya bilməz. Dünyanın hansı qütbündə məskun olmasından, hansı məqsədlərə can atmasından asılı olmayaraq, hər bir xalqın siyasi, hüquqi, əxlaqi, estetik, dini, fəlsəfi baxışlar və ideyalar sisteminə ehtiyacı var. Bu sistemin ümumi adı ideologiyadır.**

Sağlam ideologiya cəmiyyətdə milli vəhdəti təmin edən, xalqın ali məqsədlər uğrunda irəliyə doğru hərəkətinə təkan verən gücdür. Bu da bir həqiqətdir ki, güclü ideologiyaları güclü liderlər yaradır, onun dayaqlarını həm əməli fəaliyyətləri, uğurla reallaşdırdıqları inkişaf proqramları, həm də müəyyən etdikləri baxışlar sistemi, yüksək dəyərləri ilə möhkəmləndirirlər. Bu baxımdan müstəqil Azərbaycanın milli dövlət ideologiyasının - hüquqi, demokratik dövlət kimi inkişafını və təhlükəsizliyini təmin edən dəyərlər sisteminin xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən formalaşdırılması tarixi bir qanunauyğunluqdur.

## Bərabərlik

Ulu Öndər müstəqilliyinin ilk illərində zamanın ağır sınaqları ilə üzləşmiş Azərbaycan dövlətini təlatümlərdən, məhv olmaq təhlükəsindən çıxararaq, onun gələcəyinə yön verdi. Əbədi istiqlalı, milli birliyi, dünyəvi prinsiplərə malik sivil demokratik dövlət qurmaq arzusunu, vətəndaş cəmiyyətinin formalaşdırılmasını özünə strateji məqsəd seçmiş xalqımız üçün azərbaycançılıq ideologiyasını müəyyənləşdirdi. Azərbaycançılıq etnik mənsubiyyətindən, dilindən, dinindən, yaşadığı məkandan asılı olmayaraq Azərbaycanı özünə vətən bilən bütün insanların hüquqlarının bərabərliyi ideyasıdır, Vətənin onu sevən bütün bu insanlara eyni şəkildə qucaq açmasıdır.

Azərbaycançılıq XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış böyük maarifçilərimizin təməlini qoyduqları ardıcıl xətdir. Belə bir dəyərlər sisteminin formalaşmasını və Azərbaycan insanlarının onun işığında bir araya gətirilməsini mütəfəkkirlərimiz çox arzulayır, bu məqsəd uğrunda fədakarlıqla çalışırdılar. Lakin tarixi təcrübə onu da göstərir ki, istənilən ideologiya birdən-birə, qısa müddət içində yaranıb formalaşmır. Onun davamlı təkamül yolu keçməsi, özünü doğrultması, cəmiyyətdə dayaqlar tapması üçün müəyyən zaman lazımdır. Heydər Əliyevin böyüklüyü ondadır ki, mütəfəkkir maarifçilərimizin təməlini qoyduqları, təxminən 70 il sürən sovet rejimi dövründə də yeni elementlərlə zənginləşmiş bu xətti müstəqil Azərbaycan dövləti üçün güclü bir ideologiya halına gətirməyi bacardı. Azərbaycançılığı müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevirdi.

## Milli vəhdət

Bu tarixi nailiyyət, Ümummilli Lider Heydər Əliyev üçün bəlkə ona görə mümkün qədər asan başa gəldi ki, o, belə bir istiqamətlə hələ sovet Azərbaycanına rəhbərliyi illərindən ciddi şəkildə məşğul olurdu. Müxtəlif vasitələrin köməyi ilə, elmin, ədəbiyyatın, mədəniyyətin, incəsənətin və s. verdiyi imkanlarla azərbaycançılıq məfkurəsini hansısa yolla gündəmə gətirirdi. Onun dünyanın müxtəlif qütblərində yaşayan soydaşlarımız arasında yayılmasından ötrü məqsədyönlü iş aparırdı. O zaman hələ azərbaycançılıq ideologiyası kimi öz adına qovuşmamış bu düşüncə sisteminə geniş ictimai dəyər qazandırırdı.

Ulu Öndərin sovet Azərbaycanına rəhbərliyi illərində ədəbiyyatımızda, musiqimizdə, kinomuzda, rəssamlıqda, memarlıq və digər sənət sahələrində meydana gələn yeni meyillər, milli ruhumuzu, tariximizi, milli-mənəvi dəyərlərimizi göstərən maraqlı təzahürlər bununla bağlı idi. Tarixi şəraitin verdiyi imkanlar çərçivəsində həmin illərdə Heydər Əliyev ölkə kənarındakı azərbaycanlıların təşkilatlanması, diaspor kimi təsirli gücə çevrilməsi məqsədilə də müəyyən addımlar atırdı.

1993-cü ildə xalqın təkidli tələbi ilə ali rəhbərliyə qayıdaraq Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu missiyasını öz üzərinə götürdükdən sonra isə Ümummilli Lider bu siyasəti dövlətimiz üçün əsas prioritetlərdən birinə çevirdi. Tarixboyu müxtəlif xalqların təmsilçilərinin dinc, mehriban şəraitdə yaşayıb zəngin mədəniyyət yaratdıqları, böyük tolerantlıq ənənələrinə, fərqli mədəniyyətlərə hörmət ruhuna malik Azərbaycanda milli vəhdəti təmin etdi. Azərbaycançılığın əsas təməllərindən olan milli-mənəvi dəyərlərimizə sahib çıxdı. Qloballaşma dövründə yad təsirlərin dəyərlərimizi aşındırıb bizi öz kimliyimizdən uzaqlaşdırmaması üçün məqsədyönlü tədbirlər gördü. Gənc nəslin bu ruhda tərbiyələnməsi üçün ardıcıl addımlar atdı. Azərbaycan gəncliyini müstəqilliyin ilk illərindəki xaos dövründə meydanı boş görüb sərhədlərimizi adlamış ziyanlı ideologiyaların, qeyri-sağlam düşüncələrin təsirlərindən qorudu. Onlara düzgün istiqamət verdi, yol göstərdi.

Heydər Əliyev xalqımızın adət-ənənələri, milli-mənəvi dəyərləri ilə ictimai-siyasi proseslər, ölkəmizin konstitusiya sistemi, dövlət quruculuğu mexanizmi arasında qırılmaz bağlılığı təmin etdi. Bununla mükəmməl bir örnək ortaya qoydu. Azərbaycançılıq təlimi ilə bütün dünyaya göstərdi ki, bizim niyyətimiz aşırı millətçiliyə köklənmək, müasir dünyamızın bəlasına çevrilmiş etnik, dini ayrılıqlar salmaq, bir mədəniyyəti digərindən üstün tutub insanları ayrı-seçkiliyə məruz qoymaq deyil. Əksinə, hər kəsin xoşbəxt, rifah içində, tam güvənli şəkildə yaşaya biləcəyi, bütün məqamları ilə özünə aid bildiyi güclü bir dövlət qurmaqdır. Ümummilli Lider azərbaycançılıq məfkurəsini hər hansı millətçilik təzahürləri üzərində deyil, məhz vətəndaşlıq dəyəri üzərində bərqərar etdi. Bununla çoxmillətli Azərbaycanda xalqın milli birliyi, demokratik inkişafı üçün zəmin yaratdı. Nəticədə Azərbaycanın müstəqilliyinin daimiliyini, əbədiliyini, dönməzliyini təmin etdi.

## "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"

Dünya azərbaycanlılarının 2001-ci il noyabrın 9-da keçirilən I qurultayında Ümummilli Lider Heydər Əliyev deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Ulu Öndərin bu sahədəki ən böyük tarixi addımlarından biri də Azərbaycanda dünya azərbaycanlılarının I qurultayının təşkilinə nail olması, soydaşlarımız arasında milli birlik və həmrəyliyin möhkəmləndirilməsi, xaricdə yaşayan azərbaycanlıların diaspor şəklində təşkilatlanması və yaşadıqları ölkələrdə öz hüquqlarını, tarixi vətənin milli maraqlarını beynəlxalq miqyasda müdafiə edə bilmələri üçün strateji proqram irəli sürməsidir. Böyük rəhbərin qurultaydakı nitqi azərbaycançılığın tarixi proqram sənədi idi: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik…" Dahi şəxsiyyət Heydər Əliyev böyük ideoloq və dövlət xadimi olmaqla yanaşı, həm də cəmiyyətin gedişatını xüsusi fəhmlə, uzaqgörənliklə təyin edən ən böyük azərbaycanlı idi.

Bu qurultay dünya azərbaycanlılarının milli mənlik şüurunun güclənməsində, müxtəlif ölkələrdə fəaliyyət göstərən azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının təmin olunmasında müstəsna dərəcədə misilsiz rol oynadı. Ulu Öndərin iftixarla, qürurla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı da həmin qurultaydan nəsillərə yadigardır.

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi böyük fərəhlə qeyd etdiyimiz əlamətdar günün ideya müəllifi də məhz Ümummilli Liderdir. Heydər Əliyev hələ Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində çalışarkən, 1991-ci il noyabrın 5-də Ali Məclis uzun illərin ayrılığından sonra Arazboyu sərhəd dirəklərinin söküldüyü 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurətini irəli sürmüş və bununla bağlı qərar qəbul olunaraq Azərbaycan Ali Sovetinə müraciət ünvanlamışdı. Dekabrın 25-də isə Azərbaycan Respublikası Ali Soveti müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul etmişdi.

Dünya azərbaycanlılarının I qurultayından sonra xarici ölkələrdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi, inkişafı məqsədilə hazırkı Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması, həmin il xarici ölkələrdəki azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında qanunun qəbulu da Ulu Öndər Heydər Əliyevin bu istiqamətdəki tarixi xidmətlərinin qürur dolu səhifələridir. Ümummilli Lider xarici ölkələrə səfərləri zamanı da həmin ölkələrdə yaşayan Azərbaycan icmalarının təmsilçiləri ilə görüşməyi vacib bilir, onların problem və qayğılarına diqqət yetirir, fəallığı, mütəşəkkilliyi, proseslərə təsir imkanlarını daha da artırmaları üçün dəyərli tövsiyələrini onlardan əsirgəmir, azərbaycançılıq məfkurəsini bütün dünyada təbliğ edirdi.

Heydər Əliyevin böyük zəhmət bahasına illərlə formalaşdırdığı azərbaycançılıq ideologiyası xalqımızın zəngin mənəvi sərvətidir. Vahid və bölünməz Azərbaycanın qorunub saxlanılması, dövlətçilik əsaslarımızın illərlə daha da möhkəmləndirilməsi üçün bu ideologiya sarsılmaz siyasi əsas rolunu oynayır. Ulu Öndər müstəqil Azərbaycanda dövlət quruculuğunun elə bir konsepsiyasını, dövlətçilik ideologiyasının elə bir məzmununu müəyyənləşdirə bilib ki, burada dövlətçilik dəyərləri Azərbaycanın dövlət qurucularının, maarifçilərinin bir neçə nəslinin ortaya qoyduqları milli ideallar sistemi ilə ahəng yaradır. Burada ideyalar, elmi-fəlsəfi baxışlar düşüncə müstəvisindən əməli siyasət müstəvisinə keçid edir. Ona görə də Heydər Əliyevin dövlətçilik konsepsiyasında, yaratdığı Azərbaycançılıq ideologiyasında "Kitabi-Dədə Qorqud" ərənlərindən, Babəkdən, Cavanşirdən, Nizami Gəncəvidən, İmadəddin Nəsimidən, Füzulidən, Şah İsmayıl Xətaidən, Nadir şahdan Mirzə Fətəli Axundzadəyə, Həsən bəy Zərdabiyə, Sabirə, Mirzə Cəlilə, Cümhuriyyət qurucularımıza, Nəriman Nərimanova, Hüseyn Cavidə, Səməd Vurğuna qədər xalqımızın bir çox görkəmli xadimlərinin həyat və fəaliyyətindəki dəyərləri, ali məqsədləri görüb hiss etmək olur.

Məhz Heydər Əliyevin formalaşdırdığı bu konsepsiya, bu ideologiya sayəsində Azərbaycan xalqının əsrlərboyu yaratdığı fikir dünyası, sağlam düşüncə aləmi bu gün müstəqil dövlətimizin xidmətindədir və yeni nailiyyətlərə yol açır.

## Mənəvi bağ

Ümummilli Liderin müəyyən etdiyi inkişaf kursu ilə ölkəmizi tarixinin ən qüdrətli çağlarına yetirmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sahədə də Heydər Əliyev ideyalarına sadiqdir. Dünya azərbaycanlılarının birliyi, güclənməsi, Azərbaycanın güclü diaspora malik olması, diaspordan lobbiyə çevrilməsi, dünyadakı türk diasor təşkilatları ilə birgə fəaliyyəti yönündə işlər indi də məqsədyönlü şəkildə davam etdirilir. İllər boyu qazanılmış uğurların sırasına yeniləri də əlavə olunur. Xarici ölkələrdəki soydaşlarımızın tarixi vətənlə əlaqələri genişlənir. Ən əsası isə regionun lider dövləti kimi getdikcə qüdrətlənən müstəqil Azərbaycan bu gün beynəlxalq aləmdəki layiqli yeri, mövqeyi, nüfuzu ilə dünya azərbaycanlıları üçün böyük bir qürur mənbəyi formalaşdırır. Belə bir vətənə aidliyin, bu nailiyyətləri yaradan xalqa mənsubluğun iftixarını yaşadır. Azərbaycançılıq ideologiyası işığında vətəndə və dünyada azərbaycanlı adı ilə qürur duyan yeni nəsillərimiz formalaşır. Bu nəslin nə qədər böyük bir güc sahibi olduğuna, Azərbaycan sevgisinin hüdudsuzluğuna, hünərinə, cəsarətinə, əzmkarlığına 44 günlük Vətən savaşında hər birimiz şahid olduq. Vaxtilə Ulu Öndər Heydər Əliyevin, sonradan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ideologiya işığında yetirdiyi gənclik misilsiz bir igidliklə torpaqlarımızı düşməndən azad etdi. Azərbaycan dövlətinin ərazi bütövlüyünə nail oldu. Yurd həsrətimizə son qoydu.

44 günlük Vətən savaşında milli mənsubiyyətindən, dilindən, dini inancından asılı olmayaraq bütün qəhrəman övladlarımızın vahid bir vətən, vahid bir məqsəd uğrunda vuruşması, canını Azərbaycan yolunda fəda etməsi, xalqımızın Vətən müharibəsinə qədər də, savaşların getdiyi tarixi günlərdə də, zəfərimizdən sonra da nümayiş etdirdiyi sarsılmaz milli birlik azərbaycançılıq ideologiyasının təntənəsidir.

Azərbaycançılıq hüquqi kimliyimizdir, milli dəyərlərimizin məcmusudur. Onun fərdlər arasında yayılması, düzgün anlaşılması və səfərbəredici gücünü qoruması üçün hər zaman təbliğinə, aydın izahına ehtiyac var. Bu məsələdə mətbuatın da üzərinə çox böyük işlər düşür. Qürur duyuruq ki, vətənimizin adını daşıyan "Azərbaycan" qəzeti bunu özünün əsas vəzifələrindn biri kimi müəyyənləşdirib. Qəzet azərbaycançılıq ideologiyasının ayrı-ayrı məsələlərinə daim öz səhifələrində geniş yer ayırır. Oxucuları maraqlandıran suallara aydınlıq gətirir, müəyyən edilmiş vəzifələri, görməli olduğumuz işləri diqqətə çatdırır. İllərboyu bu sahədə qazanılmış nailiyyətlərə işıq salır. Azərbaycançılıq ideologiyasının anlaşılması, nəsillərdən-nəsillərə ötürülməsi üçün zəngin mötəbər mənbə rolunu oynayır. "Azərbaycan" qəzeti bu mənada Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu ideologiyanın şərəf salnaməsi, milli yaddaş, azərbaycançılıq ideologiyasını yaşadan nəsillər arasında qırılmaz mənəvi bağdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Heydər Əliyev Fondu tərəfindən təmir olunan məktəb və bağçalar istifadəyə verilir

**Yeni tədris ilində Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil müəssisəsi istifadəyə veriləcək. Belə ki, 15 Sentyabr - Bilik Günü ərəfəsində 19 məktəb və 3 məktəbəqədər müəssisə Bakıda və regionlarda müəllim və şagirdlərə hədiyyə edilmiş olacaq.**

AZƏRTAC xəbər verir ki, bu təhsil ocaqlarının mövcud binaları istismara yararsız olduğundan Heydər Əliyev Fondu tərəfindən 17 orta məktəb və 2 bağça üçün yeni bina inşa olunub, eləcə də 3 məktəb və məktəbəqədər müəssisənin binası əsaslı təmir edilib.

Bununla da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsil sahəsində apardığı siyasətə dəstək göstərərək gənc nəslin daha bilikli yetişməsinə və keyfiyyətli təhsil almasına öz töhfəsini vermiş olur.

Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsil sahəsində müxtəlif layihə və proqramlar həyata keçirir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır. Fondun "Təhsilə dəstək" proqramı çərçivəsində isə tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə təhsil müəssisələri əyani vəsaitlərlə təmin olunur.













# İlham Əliyevin şərtləri dəyişmir

## Azərbaycan Prezidenti Ağ Evə də Laçın-Xankəndi yolu ilə bağlı qətiyyətli mövqeyini bir daha çatdırdı

*Əvvəli 1-ci səh.*

Əslində, bu, ABŞ-nin regional maraqlarına uyğun deyil. Çünki Azərbaycan regionun şəksiz lideri və etibarlı tərəfdaşdır, bütün regional layihələrin təşəbbüskarı, əsas icraçısıdır. Rəsmi Bakının apardığı müstəqil xarici siyasət regionda sabitlik və sülhün bərqərar olmasına yönəlib, bu isə məntiqlə ABŞ-nin də maraqlarına cavab verməlidir. Amma görünür, bu ölkənin bəzi dairələri fərqli düşünür.

Ümumiyyətlə, Azərbaycanla təmaslar zamanı ABŞ rəsmiləri belə təsəvvür formalaşdırmağa çalışırlar ki, bu ölkədə antiazərbaycançı mövqe ayrı-ayrı konqresmenlərin lobbiçilik fəaliyyəti ilə məhdudlaşır. Amma, əslində, Dövlət Departamentinin, bu ölkənin beynəlxalq təşkilatlardakı nümayəndəliklərinin, departamentin qeyri-rəsmi "mətbuat orqanı" kimi tanınan nəşrlərin mütəmadi olaraq Azərbaycana qarşı qərəzli və riyakar mövqe nümayiş etdirmələrinin şahidi oluruq. ABŞ Dövlət katibi Entoni Blinkenin İlham Əliyevlə apardığı telefon danışıqlarındakı fikirləri isə Ağ Evin Azərbaycanın mövqeyinə dəstəyini ifadə edir. Bunu Azərbaycan Prezidenti ilə Ağ Ev rəsmisi arasında ötən aylarda reallaşan və sentyabrın 1-də aparılan telefon danışıqları bir daha təsdiqləyir. Bütün danışıqlar zamanı İlham Əliyev ABŞ-nin timsalında dünya ictimaiyyətinə, xüsusən də Hayastanın havadarlarına bir daha qətiyyətli mövqeyini çatdırır. Elə sentyabrın 1-də reallaşan növbəti danışıqda da qalib komandan bir daha Ermənistanın "humanitar böhran" şousunu ifşa eləyərək Laçın-Xankəndi yolu ilə bağlı yüklərin nə zaman və hansı şərtlər əsasında daşına bilməsinin mümkünlüyünü Ağ Ev rəsmisinin diqqətinə çatdırdı.

Telefon söhbəti zamanı Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılarkən İlham Əliyev əsl həqiqətləri açıqladı - Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəkləməkdə davam etdiyi qondarma separatist rejim Ağdam-Xankəndi yolunun açılmasına qərəzli şəkildə imkan vermir və bu yoldan istifadənin qarşısının alınması üçün süni maneə və əngəllər yaradır, Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə bu yoldan yüklərin daşınması üçün əldə olunmuş ilkin razılaşmadan imtina edib.

İlham Əliyev qeyd edib ki, Ağdam-Xankəndi yolundan istifadədən bu formada imtina etmək siyasi manipulyasiyadır və həmin ərazidə guya humanitar, yaxud qida böhranının yaşandığını iddia etmək üçün məqsədyönlü yalandır. Ağdam-Xankəndi yolunun açılmasından sonra Azərbaycanın gömrük və sərhəd-nəzarət rejimi qaydaları tətbiq edilməklə Laçın-Xankəndi yolu açıla bilər. Dövlətimiz tərəfindən separatizmin bütün təzahürləri qəbulolunmazdır: "Azərbaycan tərəfi ilə razılaşdırmadan Ermənistan tərəfindən Azərbaycanın Laçın sərhəd-keçid məntəqəsinin qarşısına humanitar təyinatlı olduğunu iddia etdikləri yüklərin gətirilməsi Azərbaycanın daxili işlərinə qarışmaqdır, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir. Ermənistanın bu kimi siyasəti sülh müqaviləsi üzrə danışıqlara ciddi zərər vurur". Prezident həmçinin Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə həmin əraziyə ərzaq yüklərinin çatdırıldığını, lakin qanunsuz separatist rejimin bundan imtina etdiyini Entoni Blinkenin diqqətinə çatdırıb.

İlham Əliyev Azərbaycanın Qarabağın erməni əhalisinin nümayəndələrini reinteqrasiya məsələləri ilə bağlı müzakirələrin aparılması üçün paytaxt Bakıya və ölkəmizin digər şəhərlərinə dəvət etməsinə baxmayaraq, onların bundan imtina etdiklərini xatırladıb.

ABŞ Dövlət katibi Entoni Blinken sülh müqaviləsinin imzalanması və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərini bundan sonra da davam etdirəcəklərini bildirib, Bakı ilə Xankəndi arasında birbaşa təmasları dəstəklədiklərini vurğulayıb.

Bu, ilk növbədə qalib komandan kimi İlham Əliyevin qətiyyətli mövqeyinin növbəti təzahürüdür. Azərbaycan Prezidenti hər zaman olduğu kimi prinsipiallığını, dəyişməz mövqeyini nümayiş etdirərək Ermənistanın havadarlarına, ona dəstək verənlərə bir daha çatdırdı ki, indi diktəni edən tərəf bizik. Yalnız Azərbaycanın şərtləri qəbul ediləcəyi təqdirdə Ermənistan hansısa addım ata bilər.

Bu gün İlham Əliyevin siyasətinin əsas prioriteti İkinci Qarabağ müharibəsinin yaratdığı reallıqlara uyğun siyasət həyata keçirmək və bölgədə sülhün təmin olunması üçün əməli işlər görməkdir. Baş verən proseslər isə göstərir ki, Azərbaycan Prezidenti 3 ilə yaxındır bütün təşəbbüslərini bu prosesə yönəldib. Bir tərəfdən 30 il ərzində ermənilər tərəfindən darmadağın edilmiş Qarabağ və Şərqi Zəngəzuru bərpa edən İlham Əliyev digər tərəfdən Ermənistanla sülh sazişinin imzalanması üçün çox mütərəqqi addımlar atır, məğlub ölkəyə, eləcə də Qarabağın erməni sakinlərinə çıxış yolunu göstərir.

Xarici işlər naziri Ceyhun Bayramovun Macarıstana səfəri çərçivəsində mətbuata verdiyi müsahibəsində səsləndirdiyi kimi, "Bakı dialoq üçün xoş iradə və açıq mövqe nümayiş etdirir. Bu, irəliyə doğru yeganə yoldur. Dialoqdan imtina edənlər onlara mesaj göndərə biləcək və hər hansı bir vədlər verəcək üçüncü güclərin əllərində girov olmaqdan qurtulmalıdır. Yeganə yol dialoq və Azərbaycanın tərkibində öz gələcəyini müzakirə etməkdir. Başqa yol yoxdur, çünki qalan bütün variantlar qeyri-legitimdir. Bu, bizim qırmızı xəttimizdir. Bundan sonra Azərbaycanın ərazisində heç bir boz zona olmayacaq".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Kəlbəcər şəhərində Şəhərsalma məsələləri üzrə İşçi qrupun iclası keçirilib







**Sentyabrın 7-də Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Şəhərsalma məsələləri üzrə İşçi qrupunun Kəlbəcər şəhərində növbəti iclası keçirilib.**

Tədbirdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, İdarələrarası Mərkəzin katibliyinin rəhbəri Nüsrət Süleymanov və Şəhərsalma məsələləri üzrə İşçi qrupunda təmsil olunan qurumların nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətovun sədrliyi ilə keçirilən iclasda Kəlbəcər rayonunda aparılan şəhərsalma fəaliyyəti və layihələndirmə işləri haqqında ətraflı məlumat verilib, daxili yol-küçə şəbəkəsinin planlaşdırılması, yaşayış məntəqələrinin elektrik enerjisi və su ilə təminatı, eləcə də digər infrastruktur obyektlərinin bərpası istiqamətində görüləcək işlər, bölgənin turizm potensialının inkişafı məsələləri müzakirə edilib. İşçi qrupun iclaslarının artıq bir qayda olaraq işğaldan azad olunmuş şəhərlərimizdə keçirilməsinin sevindirici bir hal olduğunu qeyd edən komitə sədrinin birinci müavini, iclasın Kəlbəcərdə ilk dəfə keçirildiyini vurğulayıb.

Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın tədbirlər planında nəzərdə tutulan məsələlərin vaxtında və keyfiyyətlə icra edilməsi üçün aidiyyəti qurumlar tərəfindən görülmüş və görüləcək işlərin müzakirə edilməsi, müvafiq tapşırıqların verilməsi üçün iclasın əlverişli platforma rolunu oynadığı qeyd edilib.

İclasda məlumat verilib ki, Kəlbəcər şəhərinin baş planı hazırda aidiyyəti dövlət qurumları ilə razılaşdırma mərhələsindədir. Ölkə rəhbərliyinin göstərişləri əsasında inkişaf konsepsiyasına uyğun olaraq rayon infrastrukturu sürətlə yenilənməkdədir. Cari ildə dövlət başçısı tərəfindən Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin, 960 şagird yerlik orta məktəb binasının, habelə rayonun Zar, Zallar və Yanşaq kəndlərinin təməli qoyulub. Qeyd edilənlərin layihələndirməsi ilə yanaşı, İstisu qəsəbəsində mehmanxana kompleksi və su istehsalı zavodu tikilir.

Mövcud plan üzrə 2023-cü ildə Kəlbəcər rayonunda daha 7, 2024-cü ildə isə 4 yaşayış məntəqəsinin layihələndirilmə işləri aparılacaq. Ümumilikdə 2026-cı ilədək 1-i şəhər, 1-i qəsəbə, 13-ü kənd olmaqla 15 yaşayış məntəqəsinin bərpası həyata keçiriləcək.

Həmçinin bildirilib ki, işğaldan azad edilmiş torpaqlarda yaşayış ərazilərinin minalardan təmizlənmə prosesi də sürətlə davam etdirilir. Belə ki, 2023-cü ilin 8 ayı ərzində rayonda yaşayış məntəqələri torpaqları üzrə təxminən 1105 hektar sahədən 653 hektarı minalardan təmizlənib.

İnfrastruktur məsələlərinə gəldikdə, Kəlbəcər şəhərində yaşayış məntəqələrinin küçə-yol şəbəkəsinin qurulması istiqamətində ümumi uzunluğu 27,08 km olan yol-küçə şəbəkəsinin hazırda 18,87 km-lik hissəsinin layihələndirildiyi qeyd olunub.

Eyni zamanda Kəlbəcər rayonunda 2026-cı ilə qədər təxminən 2000 ədəd fərdi yaşayış evinin və 1500 ədəd mənzilin - ümumilikdə 3500 ədəd evin tikilərək istismara verilməsi nəzərdə tutulur. Kəlbəcər şəhərində tikiləcək evlərə ilkin mərhələdə 2024-cü ildə olmaqla bütövlükdə 5000-dən artıq, kənd və qəsəbələrə isə 8000-ə yaxın, ümumilikdə 13000-ə yaxın insanın köçürülməsi planlaşdırılır.

İclasda bu günədək Kəlbəcər ərazisində həyata keçirilmiş işlərə dair məlumat verildikdən sonra müzakirələr zamanı qarşıdakı dövrdə görülməsi planlaşdırılan məsələlərə dair müvafiq tapşırıqlar verilib.

Daha sonra Şəhərsalma məsələləri üzrə İşçi qrupunda təmsil olunan qurumların nümayəndələri Kəlbəcər şəhərində inşası aparılan ilk yaşayış məhəlləsinə baxış keçiriblər.

# Qərəzli fəaliyyəti BBC-ni nüfuzdan salır

## Erməni yalanlarına açıq dəstək verməsi bu beynəlxalq media orqanının Azərbaycandakı fəaliyyətinə yenidən baxılması məsələsini də gündəmə gətirir

**İllərdir dünya mediasının aparıcı siması kimi qəbul edilən BBC son dövrlər sərgilədiyi qərəzli fəaliyyəti ilə media dəyərlərini itirdiyini ortaya qoyur. Nədən ki, artıq BBC jurnalistikanın ali məqsədi olan həqiqəti yaymaq və əsas peşəkarlıq meyarı olan obyektivlikdən çox uzaq düşüb. Belə olmasaydı, "peşəkar" qurumun hazırladığı verilişin "qəhrəmanı" sərsəm erməni ideologiyasının nümayəndəsi olmaz, separatçılıq fikirləri ön plana çəkilməzdi.**



Məgər BBC jurnalistlərinin Qarabağın beynəlxalq hüquqla Azərbaycanın ərazisi olduğundan xəbərləri yoxdur?! Bilmirlər ki, hətta Ermənistan "Qarabağ Azərbaycandır" həqiqətini rəsmən etiraf edib?!

Təbii ki, bilirlər...

Amma erməni lobbisinin milyonlarla funt sterlinqindən də əl çəkə bilmirlər...

Və buna görə də peşəkar jurnalistika və onun meyarlarının başına ip keçirərək bazara çıxıblar və xəstə erməni təfəkkürünə satıblar...

### Qərb mediası xəbərləri "erməni ağzı" ilə tirajlayır

Son dövrlər bir sıra Qərb media orqanları əməlli-başlı erməni separatizminin dəstəkləndiyi platformaya çevriliblər. Onlar Azərbaycana qarşı açıq-aşkar düşmən mövqe nümayiş etdirir, Cənubi Qafqazdakı reallıqları obyektiv işıqlandırmır, bu regionda cərəyan edən hadisələri "erməni ağzı" ilə tirajlayır, yayımlayırlar.

Torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalı, milyona yaxın insanımızın qaçqın və məcburi köçkün düşməsi, ermənilərin vətəndaşlarımıza qarşı kütləvi qırğın, soyqırımı törətmələri heç zaman Qərb mediasının gündəminə gəlməyib. 30 ildən çoxdur ki, Naxçıvan əhalisinin blokada şəraitində yaşaması beynəlxalq KİV-in diqqətini çəkməyib.

44 günlük müharibə dövründə Ermənistanın savaş meydanından kilometrlərlə uzaqda yerləşən şəhərlərimizi raket atəşinə tutmasının və mülki əhalini qətl etməsinin üzərindən sükutla keçən qərəzli media qurumları Azərbaycanla bağlı yalan və böhtanla dolu iddialar səsləndirir, materiallar verirdilər.

Vətən müharibəsi dövründə Prezident İlham Əliyev 30-a yaxın xarici KİV-ə müsahibə verdi, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətin nəzərinə olduğu kimi çatdırdı.

Bu müsahibələr zamanı Qərb KİV-inin əməkdaşlarının ünvanladıqları sualların bəzən ittihama bənzəməsi, ermənipərəstliklə verilməsi onu göstərirdi ki, artıq Qərb mediasının əksəriyyəti erməni lobbisinin sifarişi ilə işləyir, yəni onun oyuncağına çevrilib.

Həmin vaxt Prezident İlham Əliyev bütün "erməni-Qərb KİV-i ittifaqı"nı sərrast və faktlara əsaslanan cavabları ilə darmadağın etdi, necə deyərlər, fitnəkar qruplaşmanı tərk-silah edərək, öz silahları ilə vurdu, erməni yalanlarını bir daha dünyada ifşa etdi.

### Azərbaycana qarşı sovet üslubunda təbliğat aparan Qərb media resursları

Vətən müharibəsindən sonrakı dövrdə isə erməni lobbisi ələ aldığı Qərb media resursları vasitəsilə ölkəmizə qarşı daha aqressiv hücumlara keçib. BBC başda olmaqla, Qərbin bəzi qərəzli KİV-i Azərbaycanla bağlı böhtan xarakterli materiallar yayımlamaqda davam edir. Ermənilərin Laçın yolu ətrafında spekulyasiyasına və Xankəndidə "aclıq oyunları" tamaşasına proqramlarında geniş yer ayırırlar. Amma ölkəmizin Qarabağda yaşayan erməni sakinlərə alternativ yollar təklif etməsini, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Xankəndiyə 40 ton un qismində ərzaq yardımı göndərməsini görmək istəmirlər. Əvəzində isə, məsələn, elə BBC erməni separatçını öz verilişinə dəvət edir, onun "Artsax"la bağlı sərsəmləmələrini yayımlayır. Beynəlxalq hüququ pozaraq Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə dil uzadır və beləcə, beynəlxalq jurnalistikanın prinsiplərinin üzərindən qara xətt çəkir.

Təəssüf ki, Fransanın "Le Monde" qəzeti, o cümlədən "The New York Times" nəşri də BBC-nin qərəzli yolunu davam etdirir. Bu orqanlarda yayımlanan məqalələrin hamısının arxasında erməni lobbisinin dayandığı çox açıq görünür.

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də öz "X" sosial şəbəkəsindəki paylaşımında BBC-ni qərəzli olmaqda günahlandıraraq qeyd edir ki, "BBC bütün səslər, xüsusən də həssas mövzular üçün platforma rolunu oynamalıdır".

Hikmət Hacıyev "The New York Times" nəşrinə ünvanladığı açıq məktubunda da bildirir ki, "Hər kəsin səsinin çatdırılması üçün ədalətli platforma olmaq əvəzinə, mən təəssüflənirəm ki, "The New York Times" alternativ baxışlara maneələr və bürokratik əngəllər qoyur".

Prezidentin köməkçisi onu da əlavə edir ki, Azərbaycana qarşı sovet üslubunda təbliğat aparan bəzi Qərb media orqanlarının informasiya monopoliyasına qarşı "X" sosial şəbəkəsi daha güclü alternativ, azad və açıq platforma təqdim edir: ""The New York Times" daxil olmaqla, bu məqalələrin hamısını yoxlayarkən belə təəssürat yaranır ki, onların hamısı eyni hökumət qurumunda və ya erməni lobbisi və hökuməti tərəfindən maliyyələşdirilən PR şirkətində tərtib edilib".

Gətirdiyimiz bu faktlar onu deməyə əsas verir ki, Qərb mediasının bəzi simaları, o cümlədən BBC qərəzsizliyini və obyektivliyini çoxdan itirib. Jurnalistikanın bütün meyarlarını pozaraq erməni lobbisinin sifarişlərini yerinə yetirir, ölkəmizə qarşı düşmənçilik kampaniyası aparır. Elə son olaraq Qarabağla bağlı hazırladığı verilişə separatçı ünsürü dəvət etməsi, erməni mövqeyindən çıxış etməsi bunu təsdiqləyir. Əlbəttə ki, bu mövqe başdan-ayağa yalan və böhtan üzərində qurulub, BBC-nin separatizmə dəstəyini nümayiş etdirir.

Ekspertlər də hesab edirlər ki, Azərbaycanın suveren ərazisi olan Qarabağda ikinci erməni dövlətinin yaradılması ilə bağlı ardıcıl kampaniyalar aparması BBC-nin ölkəmizdəki fəaliyyətinə yenidən baxılmasını gündəmə gətirir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# “Böyük qayıdış” proqramı sürətlə icra olunur



## Yurda qovuşmaq sevinci

**Doğma yurda qayıdış sürətlə davam edir. Bu il Laçın rayonunun Zabux kəndinə, Laçın şəhərinə, Tərtərin Talış kəndinə, Füzuli şəhərinə ilk köç reallaşıb. Eyni zamanda Zəngilanın Ağalı kəndinə qayıdışın dördüncü mərhələsi başlayıb. Dünən isə daha 25 ailə - 102 nəfər Füzuli şəhərinə, dədə-baba yurduna qayıdıb. Bununla Füzuli şəhərində 281 nəfərin məskunlaşması təmin olunub.**

















Füzulililərin doğma yurda ilk qayıdışı avqust ayının 18-də baş tutub. İlk köç karvanında 23 ailə - 90 nəfər elinə, obasına qayıdıb. İkinci köç karvanı isə avqustun 22-də Füzuli şəhərinə yola düşüb. Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən daha 23 ailə - 89 nəfər evinə geri dönüb.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilər üzrə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, Füzuli şəhərinin baş planına əsasən, 2040-cı ilədək şəhərin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Onun sözlərinə görə, şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq: "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən Füzuli şəhərində inşa edilən yaşayış məhəlləsi 8,9 hektar ərazini əhatə edəcək. Ərazidə 846 mənzildən ibarət 38 bina tikiləcək. Binalar 4, 5, 6 və 7 mərtəbəli olacaq. Mənzillərin 318-i ikiotaqlı, 430-u üçotaqlı, 98-i isə dördotaqlı olacaq. Bütün binalarda yeraltı dayanacaqlar və liftlər düzəldiləcək. Yaşayış məhəlləsində hər biri 950 kubmetr olan 2 su anbarının, qazanxananın, elektrik yarımstansiyasının da tikintisi nəzərdə tutulub. Binalar mərkəzləşmiş istilik sistemi ilə təchiz ediləcək. Tikinti işlərinin 2023-cü ilin sonunadək başa çatdırılması nəzərdə tutulur", - deyə E.Hüseynov qeyd edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən Füzuli şəhərinə birinci mərhələdə köçürüləcək ailələr arasında keçirilən püşkatmada 144 ailə (509 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 51-i ikiotaqlı, 76-sı üçotaqlı, 17-si dördotaqlı mənzillərlə təmin olunublar.

Bütün bunlar Vətən müharibəsindən sonra işğaldan azad olunmuş rayonlarımızda görülən sürətli bərpa və yenidənqurma işlərinin nəticəsidir. Prezident İlham Əliyevin birbaşa nəzarəti altında Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri sürətlə davam edir. Bu, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını tezləşdirir.

Qeyd edək ki, "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı"nın icrası da bu baxımdan mühüm rol oynayır.

Proqrama əsasən, Qarabağ və Şərqi Zəngəzurda infrastruktur, sosial inkişaf, iqtisadiyyatın yenidən qurulması, ətraf mühitin tarazlı inkişafı istiqamətində tədbirlər görülür.

Xatırladaq ki, bu ilin avqust ayında Laçın rayonunun Zabux kəndinə də ilk köç baş tutub. Kəndə ilk mərhələdə 20 ailə - 88 nəfər köçürülüb. Zabuxda ümumilikdə mindən çox sakinin məskunlaşması nəzərdə tutulur. Zabux cəmi bir ilə yaxın müddətdə yenidən qurularaq laçınlıların istifadəsinə verilib.

Xatırladaq ki, ötən ilin avqust ayında Laçın şəhəri, Zabux və Sus kəndlərində qeyri-qanuni yaşayan ermənilər ərazilərimizi tərk etmişdi. Bundan sonra şəhərdə və kəndlərdə sürətli quruculuq işlərinə başlanıldı. Elə bunların nəticəsidir ki, çox keçmədən laçınlılar Laçın Şəhər Gününü öz doğma yurdlarında qeyd etdilər.

Laçın şəhərinə cari ilin may ayından başlayan qayıdış 956 nəfəri əhatə edib. Bütövlükdə Laçın rayonunda indiyədək 1000-dən çox sakin məskunlaşıb.

Ağalı kəndində isə avqustun 12-də 22 ailə - 106 nəfərin köçürülməsi ilə ümumilikdə 526 nəfərin (108 ailə) daimi yaşayışı təmin olunub.

İşğaldan azad olunmuş rayonlarımıza qayıdan, həsrət və nisgilinə son qoyulan sakinlərin ümumi sayı iki minə yaxındır. İlin sonuna kimi bu say daha da artacaq.

2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin məskunlaşması nəzərdə tutulur. Çox keçməz ki, işğaldan azad olunmuş bütün rayonlarımızın əzəli sakinləri geri dönər. Onlar hər il şəhər günlərini təmtəraqla, qürurla, fəxrlə öz dədə-baba yurdlarında qeyd edərlər. Bununla da 44 günlük Vətən müharibəsindəki şanlı qələbə ilə məcburi köçkün adı üzərlərindən götürülənlərin vətən həsrətinə, nisgilinə birdəfəlik son qoyulacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Füzuli şəhərində daha 25 ailəyə evlərin açarları təqdim olunub





**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu Park 3" yaşayış kompleksindən daha 25 ailə Füzuliyə yola salınıb.**







AZƏRTAC xəbər verir ki, yenidən çiçəklənən Füzuli doğma sakinlərini qarşılamağa davam edir. 25 ailə olmaqla, 102 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Füzuli şəhərinə çatan ailələr Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən böyük coşqu ilə qarşılanıblar.

Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Füzuliyə qayıdan ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alıblar. Bununla da Füzuli şəhərində 95 ailə olmaqla, 349 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

## "Bizi irəlidə daha gözəl günlər gözləyir"



"Doğma elimə, yurduma qayıtdığım üçün çox sevinirəm və xoşbəxtəm. Bütün məcburi köçkünlər tezliklə öz torpaqlarına qayıdacaqlar. Hər biri bu sevincli günü səbirsizliklə gözləyir".

Bu sözləri AZƏRTAC-a müsahibəsində ata-baba yurduna qayıdan Füzuli sakini İsa Nəsirov deyib.

"Mən qayıtdıqda ilk olaraq öz qohumlarımın məzarını ziyarət edəcəm. Füzulidən çıxanda 8 yaşım var idi. Uzun illər keçməsinə baxmayaraq hələ də xatirələr xəyalımda canlanır. Artıq gözəl günlər bizi gözləyir. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin!", - deyə İsa Nəsirov vurğulayıb.

* * *



Daha bir Füzuli sakini Fərid Məmmədov da sevincini belə dilə gətirdi: "Otuz il idi ki, məcburi köçkün həyatı yaşayırdıq və Sumqayıt şəhərində məskunlaşmışdıq. Altı yaşımda yurdumu tərk etmişdim. Artıq pis günlər geridə qaldı".

O, dövlət başçısına, torpaqlarımızın azadlığı uğrunda döyüşən qəhrəman Vətən oğullarına da təşəkkürünü bildirərək deyib: "Torpaqlarımız işğaldan azad edildikdən sonra bir dəfə Füzuliyə səfər etmişəm. Orada insanı tamam başqa hisslər bürüyür. Bir anlıq o torpaqlar uğrunda igidlərimizin necə vuruşduğu gözlərimdə canlandı. Orada yaşamağımız üçün gözəl şərait yaradılıb, evlər tikilib. Füzulinin əsl sakinləri qayıdır".

* * *



"On altı yaşımda Füzulidən məcburi köçmüşəm. İndi isə 30 il sonra öz doğma yurduma geri qayıdıram. Sevincimin həddi-hüdudu yoxdur. Çox həyəcanlıyam".

Bu sözləri AZƏRTAC-a ata-baba yurduna qayıdan Füzuli sakini Nərminə Namazova deyib.

"Mən qayıtdıqda, ilk olaraq, əmimin məzarını ziyarət edəcəyəm. Neçə illərdir mən bu anı gözləyirdim. İrəlidə bizi daha gözəl, firavan günlər gözləyir. Allah dövlətimizi, Azərbaycan Ordusunu qorusun. Bizə bu sevinci yaşatdığı üçün dövlətimizin başçısına minnətdarıq", - deyə Füzuli sakini fikirlərinə əlavə edib.

* * *



Doğma yurduna qayıdan Füzuli sakini Əflas Abbasova da sevincini gizlətməyib: "Otuz ildən sonra doğma yurdumuza qayıdırıq deyə çox şadıq. Bu gözəl hissləri sözlə ifadə etmək çox çətindir".

İlk vaxtlar çətin günlər yaşadığını deyən Füzuli sakini onu da qeyd edib ki, ailə üzvləri ilə Bakıya gələrkən böyük çətinliklərlə üzləşiblər: "O anları xatırlamaq məni kövrəldir. Bu günləri gördüyüm üçün çox xoşbəxtəm. Doğma torpaqlara çatanda, ilk olaraq, valideynlərimin və qohumlarımın qəbrini tapsam, ziyarət edəcəyəm. Bizə bu xoşbəxtliyi bəxş edən Prezident İlham Əliyevə minnətdarlığımı bildirir, şəhidlərimizə rəhmət diləyir, qazilərimizə cansağlığı arzu edirəm".

* * *



Sevinən Füzuli sakinlərindən biri də İsaq Nəsirovdur. Yurd həsrəti ilə yaşadığını bildirən İ.Nəsirov deyib: "Mən bu gün oğlumu və nəvələrimi yola salıram. Tezliklə özüm də Füzuliyə köçəcəyəm. Yurduma qayıtmağı səbirsizliklə gözləyirəm.

Mən Bakıya gələndə oğlum birinci sinif şagirdi idi. Artıq illər keçib, nəvələrim də var və onlar dədə-baba yurdlarına geri dönürlər. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızı işğaldan azad etdi". İsaq Nəsirov Allahdan şəhidlərimizə rəhmət diləyib, qazilərimizə cansağlığı arzulayıb. Yaxın zamanda öz yurduna köçəcəyini diqqətə çatdıran Füzuli sakini doğma torpaqlarında hər şeyin daha da gözəl olacağına əmindir.

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 2 yanvar (Cümə axşamı günü) tarixli 77-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Pəncşənbə, 29 rəbiüləvvəl sənə 1337.
2 kanuni-sani sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalətin mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubledir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## TELEQRAF XƏBƏRLƏRİ

**Müttəfiqlər Kubanda**

Sevastopol təriqi [yolu] ilə Yekaterinodara xəbər verirlər ki, Kubanda olan Müttəfiq dövlət nümayəndələri Kuban əhvali-siyasiyyəsi [siyasi vəziyyəti] ilə dürüst aşina olmuşlardır. Qeyri-rəsmi adamlardan alınan xəbərlər Müttəfiqlərə böyük təsir bağışlamışdır. Müttəfiqlər Kuban Radasının siyasətindən və əhvalın həqiqətindən xəbərdar olduqda, Könüllü ordu nəzdindəki Ərkani-hərb müşavirəsi [Hərbi qərargah məclisi] üzvlərinə bir qədər soyuq nəzərlə baxmağa başlamışdır.

Bundan əlavə, ordu başında olan dairələrlə də ehtiyatkaranə davranmaqdadırlar. Müttəfiqlər Könüllü orduya texnika cəhətdən müavinət [köməklik] göstərəcəklərdir. Lakin Könüllü ordunun öz nüfuzu ilə siyasi təsiratının güclənməsindən saqınacaqlardır.

**Lehistanda**

Nauen teleqraf acentəliyi xəbər verir ki, Lvovda Leh (Polşa) Hökuməti təşkil edildikdən sonra Lehistanda dörd müxtəlif hökumət mövcuddur:

1 - Lvovda köhnə Lehistan Hökuməti;
2 - Pilsudski başda olmaq üzrə Varşava Hökuməti;
3 - Lyublində sosial-revolusioner hökuməti;
4 - Krakovda Polşa Təsviyyə Komitəsi.

**Türkiyə Parlamanı**

Vüzəra Şurası [Nazirlər Kabineti] hələliyə Türkiyə Parlamanının buraxılmasını qərara almışdır.

**Amerika donanmasının artırılması**

Bəhriyyə İşləri katibi Daniels öz illik hesabında donanmanın beynəlmiləl polisəsi vəzifəsini və dənziləri mühafizə etmək işlərini aparmaqdan ötrü artırılmasını məsləhət görür. Daniels İngiltərə donanmasının müvafiqətkarlığından [razılığından] bəhs edib deyir ki, Amerika Hökuməti ən dövlətli bir hökumət və müharibə zamanı hamıdan az mütəzərrir [zərər çəkmiş] olduğuna görə, sülhi-ümumini [ümumdünya sülhünü] mühafizə etməkdən ötrü donanma məxaricini [xərclərini] öz öhdəsinə almalıdır. Daniels İngiltərə donanmasının Amerika əsgərlərini nəql etməkdən ötrü hazır olduğunu tərif etmişdir.

## SÜLH ƏTRAFINDA

* Parisdən verilən məlumata görə, Londrada Müttəfiqlər gələcək Sülh Konfransı məramnaməsini hazırlamaq üçün müşavirələr tərtib etməkdədirlər. Hələlik Etilaf düvəli-müəzzəməsi [Antanta blokunun böyük dövlətləri] iştirak edir. Ondan sonra başqa müttəfiqlər də konqredə iştiraka cəlb ediləcəklər. Qəti məsələdən ötrü Vilsonun vürudu [gəlişi] gözlənir.

* Sülh Konqresi möhtəməl [ehtimal edilən] vaxtdan əvvəl iniqad edəcəkdir [baş tutacaqdır]. İngiltərə heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] bütün xidmətçiləri ilə bərabər 450-500 nəfərədək olacaqdır.

* "Havas" acentəliyinin Parisdən verdiyi məlumata görə, Parlamanın Sosialistlər fraksiyası heyəti Fransa Rəisi-Vükəlası [Baş Naziri] Klemansoya müraciətən, Sülh Konqresində fəhlələrə xüsusi yer verilmək üçün lazımi tədabir ittixaz edilməsini [tədbirlər görülməsini] və Beynəlmiləl Sosialist Konqresi dəvətinə [çağırılmasına] izin verilməsini xahiş etmişdir. Klemanso cavab vermişdir ki, işbu məsələni başqa müttəfiqlərlə bərabər həll etməlidir.

* Kanuni-əvvəlin əvailində [dekabrın əvvəllərində] Braziliya sülh heyəti konqreyə gedəcəkdir.

**Mütarikənin [atəşkəsin] uzadılması**

Berlindən Amsterdama verilən xəbərlərə görə, Erzberqer izhar etmişdir [bildirmişdir] ki, fransızlar mütarikə müddətini uzatma məsələsini müzakirə etməkdən ötrü Almaniya komandanlığına müraciətlə vəkillər təyin edilməsi tələbində bulunmuşdur. Bu məsələ Trirdə bu ayın 12 və ya 13-ündə müzakirə ediləcəkdir.

## KİM NƏYİN FİKRİNDƏ İMİŞ?

Bizi Rusiyaya "bitişdirmək" istəyən "Yedinaya Rossiya" qəzetəsi general Tomsonun bu axırkı intibahnaməsindən [bəyanatından] və generalın bilxassə özündən çox narazıdır. Şəhərimizdəki Rus Milli Komitəsinin naşiri-əfkarı [fikirlərini yayan orqan] və Azərbaycan azadlığının düşməni olan bu qəzetə, Rəisi-Vüzəra [Baş Nazir] Fətəli xanın deklarasiyasını və bu deklarasiya bəd'ində [ardınca] general Tomson tərəfindən sadir olan [elan edilən] intibahnaməni tənqid edərək deyir ki:

"Bu necə işdir? Fətəli xan deyir ki, Azərbaycan Hökuməti Azərbaycan dövlətinin istiqlalını gözünün bəbəyi kimi mühafizə və müdafiə edəcəkdir. General Tomson dəxi əmr verir ki, Azərbaycan daxilində Fətəli xan hökumətindən başqa ayrı hökumət ola bilməz və bu hökumətə ingilis komandası tərəfindən hər dürlü müzahirət [yardım] göstəriləcəkdir. Belə neyçün?

Deməli, ingilis komandası başında olan şəxs Azərbaycanın Rusiyadan ayrılıb da müstəqil bir hökumət olduğuna razımı olur? Bəs, ingilislər Rusiyanı təzədən diriltmək istəyirdilər?!" deyə şikayətdə bulunur.

"Yedinaya Rossiya"dan başqa "həqiqi eserler"lərin məşhur "Znamya truda"sı, fəhlə "tərəfdarlarının" "İskra"sı, Erməni Milli Komitəsinin "Naşe vremya"sı, "qəhrəman" daşnakların "Vperyod" adındakı küçə vərəqəsi, hətta müsəlman pulu ilə çıxan "Kaspi" qəzetəsi dəxi bu mətləb xüsusunda ağız-ağıza verib biri şikayət edir, biri söyür, biri ağlayır, biri ahnalə çəkir, biri qarğış edir. Amma, axırda hamısı öz-özlərinə təsəlli verib deyirlər ki: inşallah ki, bu iş "недоразумение"dir [anlaşılmazlıq olmuşdur]! Yəni, ingilis komandası başında duran general Tomson səhv edibdir və səhvini başa salsaq, tez düzələr!

Şübhəsizdir ki, insaniyyət və azadlıq düşməni olan bu qəzetələrin bu cürə danışıqları salamat bir ağılın kəraməti sayəsində hasil olmayıb da, büxl [paxıllıq] və həsəd hissiyati-zəmiməsinin [bədxah hisslərinin] daşıbcoşmasından nəşət edən [irəli gələn] sərsəri sözlərdir. Dilənçilərinə qədər mədəniyyət sahibi olan bir millətin generalı o qədər oldu ki, dediyi sözlərin haqq və səhv olduğunu anlamadımı? Və bu sözlərin vaxt və mövqeyini dərk etmədimi?

Boş və bica [yersiz] təsəllidir!

General Tomson nə eylədiyinin və nə danışdığının mənasını, əlbəttə, çox gözəl bilir və əgər generalın hərəkatı [hərəkətləri] və buyurduğu sözlər azadlıq düşmənlərinin meyil və arzusuna təvafüq etməyirsə [uyğun gəlməyirsə], ondan aşkardır ki, general Tomson azadlıq düşmənlərinin meyil və arzularına şərik deyildir.

Hələ "Kaspi" qəzetəsinin xüsusi bir təsəllisi var. Deyir ki, general Tomsonun Azərbaycanı ancaq Azərbaycan Hökumətinə tapşırması və bu hökumətə kömək vəd etməsi Azərbaycan istiqlalının ingilislər tərəfindən təsdiqi əmrinə [faktına] dəlil deyildir.

Lakin, bizcə "Kaspi"nin bu xüsusi təsəllisi dəxi düşmənlərimiz üçün həqiqi təsəlli olacaq mahiyyətdə bir şey deyildir. Çünki əvvəla, şübhə yoxdur ki, general Tomsonun bu intibahnaməsinə Amerika və Fransadan ibarət olan sair Müttəfiqlər nümayəndələri dəxi şərikdirlər və saniyən [ikinci olaraq] ingilis generalının sözü, necə ki məbuslarımız [millətvəkillərimiz] dəxi təsdiq etdilər, ingilis camaatının sözüdür. Bundan ötrü ki, general Tomsonu Azərbaycana göndərən, ona məmuriyyət verən, ona etibar və etimad edən ingilis camaatı olubdur və bir də generalın eylədiklərini və dediklərini London bilib də təsvib [təsdiq] etməsə, onu burada saxlamaz, əvəz eylər. Nahaq yerə düşmənlərimiz general Tomsonu Londona şikayət edəcəklər, deyə təhdid edirlər! Hərçənd ki, şikayət etsələr heç yaman olmaz: özlərinin əbəs yerə qara-qışqırıq salan olduqlarını, qaraçılıqlarını və bununla belə düşməni-insaniyyət və ədüvvi-hürriyyət [insanlıq və azadlıq düşməni] olduqlarını general Tomsona bildirdikləri kimi, Londona dəxi bildirməklə, bəlkə birkərəlik canımızı qurtararlar.

General Tomsonun hərəkatı mübtədi [ibtidai] məktəb şagirdlərinin belə anlayacağı dərəcədə aşkar və aydın bir işdir.

General Qafqaza varid olub [gəlib] həqiqəti-haldan bizzat və bileyn [şəxsən və öz gözü ilə görərək] xəbərdar oldu. Gördü ki, Azərbaycan torpağı Azərbaycan türkləri ilə məskun bir yerdir. Bu türklərin nizamsevən, asayişə riayət edən, ülüvvi-cənab [alicənab] bir irq olduğunu müşahidə etdi. Türk-Azərbaycan torpağında bir xeyli erməni ünsürlərinin də yaşadığını gördü. Şübhəsiz ermənilərin də nə gunə [nə cür] xasiyyət sahibi bir millət olduğunu da anladı. Ondan əlavə, burada sabiq Rusiya padşahlığından qalmış bir qədər də rus olduğunu gördü. Bu ruslardan da bir parasının çürük istibdad fikirli "millət-pərəst" və bir paralarının da yalançı "hürriyyətpərəst" və "fəhlədost" olduqlarını sezdi. Bavücudiin [bununla birgə], arada söz olmasın deyə, Hökumətimizə təklif etdi ki, hökumət içində ruslara və ermənilərə dəxi yer verilsin. Zatən, Hökumətimiz və Parlamanımız bu hökuməti-müctəmiə [birləşmiş hökumət] fikrini əvvəldən özü meydana atmışdı. Odur ki, Hökumətimiz heyətində ruslara da, ermənilərə də hərəsinə üç vəzirlik [nazirlik] yeri verildi. Ermənilər bu vəzirlik yerlərini "kamali-fəxr" ["böyük bir qürur"] ilə rədd etdilər. Ruslardan da "Yedinaya Rossiya" çadırına mənsub olmayanlardan iki nəfəri gəldi, amma Rus Milli Komitəsi təklifimizi qəbul etmədi. Biz də ki, daha yalvarmayacayıq. General Tomson dəxi rus və erməni millətçilərinin bu yersiz naz və qəmzələrindən və nalayiq hərəkətlərindən xoşnud olmadığını bildirib, yeni Hökumətimizi təsdiq etdi. Vəssalam!

"Yedinaya Rossiya" bizdən və general Tomsondan incidiyi kimi, Hökumətimiz içində vəzirliyi qəbul edən Protasov və Lizqar cənablarından daha artıq incikdir. Deyir, necə ola bilər ki, Azərbaycan Hökumətinin istiqlalına rus adamları razı olub da, hələ gedib vəzirlik də etsinlər?

Deməli, Rus Milli Komitəsi Hökumətimiz içinə vəzir göndərsəymiş, həman vəzir Azərbaycan əhalisinin ehtiyacat və məişət işlərini kənara atıb ancaq Azərbaycanı Rusiyaya "bitişdirmək" politikasına məşğul olacaqmış. Bundan belə görünür ki, erməni vəzirləri də Azərbaycanı Ermənistana bitişdirəcəklərmiş. Ancaq bu politikanın yeridilə bilməyəcəyini görüb də təklifimizi rədd edib, özümüzdən küsübdürlər.

Bəs elə isə yaxşı edibdirlər ki, küsübdürlər. Axıradək küsmüş qalsalar daha gözəl iş görmüş olarlar. Çünki Azərbaycan vəzirləri rus olsun, erməni olsun, yalnız Azərbaycana və Azərbaycanın ehtiyacatına qulluq etməlidirlər və illa [yoxsa] "başqa fikirlər"lə gəlmiş olan vəzirləri biz bir gün də içimizdə saxlamarıq!

*Hacıbəyli Üzeyir*

## PARLAMAN ƏTRAFINDA

### İdarəyə məktub

**-I-**

Möhtərəm müdir!

"Azərbaycan"ın 76-cı nömrəsində "Lənkəran faciəsi" ünvanlı məqalənizdə Lənkərandakı vətəndaşlarımızın düçar olduqları fəlakətə haqqı ilə həmdərdlik etmiş, ifayi-vəzifeyi-həmiyyət olmaq [vətən və millət təəssübü çəkmək vəzifəsini yerinə yetirmək] üzrə Parlaman əzalarının [üzvlərinin] bu məsələ haqqında bu vaxta qədər səs çıxarmadıqları üçün günahkar olduqların[ı] məqami-müaxizədə [töhmət mənasında] söyləmiş, bilxassə [xüsusilə] Lənkəran nümayəndəsin[i] günahlı çıxarmışsınız.

Kəndinizin də etiraf eylədiyinizə görə, bu vaxta qədər qarşımızı kəsən mümaniət [maneə], ancaq Tomsonun Azərbaycan Hökuməti haqqındakı bəyannaməsindən sonra qalxmışdır. Böylə ikən Parlaman əzaların[ın] ümumən və Lənkəran nümayəndəsinin də xüsusən bir söz söyləməmək günahkarlığı[nı] müaxizə üçün bir qaç gün möhlət vermək münasib olardı zənn edəriz.

Kəndi vətəninin deyil, Azərbaycan vətəni-ümumisinin bir cüzi-layənfəki [ayrılmaz parçası] olan Lənkəran məsələsi isə Lənkəran nümayəndəsi tərəfindən dəfələrlə Hökumət hüzurunda Parlaman rəyasəti ilə fraksiya daxilində mövzui-bəhs olunmuş [gündəmə gətirilmiş], bu xüsusda rəsmi və ələni [açıq-aşkar] bir təşəbbüsdə bulunmaq isə siyasətən daha münasib bir zamana qədər təcil edilmişdi [təxirə salınmışdı].

*Lənkəran məbusu*
*Hacı Mirzə Səlim Axundzadə*

**İdarədən:** Lənkəran məsələsinin və bu məsələ qarşısındakı mümaniətlərin [maneələrin] xüsusunda Tomsonun intibahnaməsindən qabaq Parlaman kürsüsündən ələnən [açıqca] danışılaydı, mənfəətdən başqa bir zərər olmazdı. Biz ki, bu məsələnin Parlamanda açılacağı intizarındayıq.

**-II-**

Müdiri-möhtərəm!

"Azərbaycan" qəzetəsinin 74-cü nömrəsində "Əhrar" fraksiyasının çıxışı xüsusunda verilən məlumat həqiqətə müğayirdir [ziddir]. Guya, mən demiş olam ki, "Əhrar" fraksiyası, bəyannaməsini öz vaxtında oxumaqdan qəflət edibdir və guya, bir qədər müzakirədən sonra, mənə bəyannaməni oxumaq izni verilibdir. Həqiqət isə böylədir: "Əhrar" fraksiyası Məclisi-Məbusan güşadından [açılışından] sonra təşkil olunubdur. Deməli, firqələr tərəfindən bəyannamələr oxunanda, fraksiyamız dünyaya gəlməmişdi və gəlmədiyi surətdə "qəflət" də edə bilməzdi.

Bəyannamə xüsusunda isə fraksiyamızın qərarı böylə idi ki, yeni təşkil olunmuş Kabinəyə izhari-etimad etmək [etimad göstərmək] münasibətilə bəyannamə də oxunsun. Çünki fraksiya, Cümhuriyyəti idarə etmək xüsusunda öz fikrini söyləməmiş, Hökumətə izhari-etimad edəmməzdi. Bu barədə mən çıxışımdan qabaq həm Sədr cənablarını və həm bir neçə firqələrin liderlərini görmüşdüm. Sədr əfəndi əvvəlcə riza verməyirdi. Mən də ona söylədim ki, bizim fraksiyamız da, başqa firqələr kimi, idarə xüsusunda öz nöqteyi-nəzərini bəyan etməzsə, etimadını da elan edəmməyəcəkdir. Sədr cənabları mənə cavab verməyib, sükut ixtiyar etdi. Natiqlər sırasında növbət mənə gəlib yetişdi. Mən bəyannaməni oxumağa başladım. Sədr cənabları məni dayandırdısa da, məbuslar yerbəyerdən oxumaq təklifini etdi. Mən də bircə kəlmə söz belə deməyib, Sədr izni ilə bəyannaməni oxumağa davam etdim.

*Abdulla bəy Əfəndizadə*

## GÜRCÜ-ERMƏNİ MÜHARİBƏSİ

**Gürcüstan ərkani-hərbindən [hərbi qərargahından]**

Şüləver dairəsində vaqe olan müsadimədə [toqquşmada] düşmənin iki pulemyotu bizim əlimizə keçmişdir.

**Şüləverin alınması**

Azərbaycan Hökuməti nəzdində olan Gürcüstan siyasi nümayəndəsi, Tiflisdən böylə bir rəsmi teleqraf almışdır: Dekabrın 28-də bizim əsgərlərimiz Şüləveri işğal etmişlərdir. Bütün gün bizim əsgərlərimiz 4 top, bir neçə pulemyot qənimət alıb, yeddi zabit və 106 nəfər əsgər əsir tutmuşlardır. Məğlub olmuş düşmən qaçmağa üz qoyub əsgərlərimiz tərəfindən təqib edilməkdədir.

**Sadaxlının alınması**

Bakıda olan Gürcüstanın siyasi nümayəndəsinin aldığı xəbərlər görə, gürcü əsgərləri Sadaxlını işğal edib, müharibə ilə irəli hərəkət etməkdədirlər.

**Təkzib**

* Azərbaycan Hökuməti nəzdində olan Gürcüstan siyasi nümayəndəsinin məlumat şöbəsi xəbər verir ki, gürcü-erməni müharibəsinin qurtarması haqqında dəvəran edən [gəzən] şayiələr və qəzetə xəbərləri əsilsizdir.

* Yenə həman məlumat şöbəsi Gürcüstan Hökumətinə verdiyi sualına cavab almışdır ki, "Znamya truda" qəzetəsinin erməni əsgərləri tərəfindən qənaimi-hərbiyyə [hərbi qənimət] almaları xüsusunda yazdığı xəbərlər əsilsizdir.

**Dağıstan Hökumətinin Gürcüstan və Ermənistan hökumətlərinə notası**

Dağıstan Hökumətinin Xariciyyə naziri vəzifəsini ifa edən Kotsev müharibənin dayandırılması haqqında Gürcüstan və Ermənistan hökumətlərinə böylə bir nota göndərmişdir:

"Bolşevizm mübarizəsində xunalud olan [qana batan] Qafqaziyanın Dağıstan əhalisi Gürcüstan və Ermənistan hökumətləri arasında sərhəd məsələsindən ötrü başlanan qanlı müharibəni kamali-təəssüflə [böyük bir təəssüflə] eşitmişlər. Cahan müharibəsi dayandırılıb, aləmi-bəşəriyyət təzə həyata başladığı bir zamanda Dağıstan Hökuməti iki millət arasında başlanan müharibənin bir onlar üçün deyil, bəlkə qonşu hökumətlərin müqəddəratı üçün fəlakətli olduğunu görür. Qafqaziyanın iki mütəşəkkil və demokratik cümhuriyyətləri arasında daxili mübahisələrin silah gücü ilə həll edilməsi, Qafqaziyada müstəqil hökumətlər təşkilini bütün cahan və Avropa nəzərində ləkələyir. Gürcüstan və Ermənistan hökumətləri nəinki bir tək özlərinin, bəlkə bizim də istiqlalımız əleyhinə silah qaldırmış olurlar. Bütün Qafqaziya millətləri üçün mədəni müvəffəqiyyət, məhəbbət və xoşbəxtlik arzusunda olan Qafqaziya Dağıstan əhalisi öz hökumətləri dili ilə Gürcüstan və Ermənistan millətləri arasındakı qardaş öldürücü müharibənin dayandırılmasını təkidlə xahiş edir.

Müharibə hərəkatının tezliklə dayandırılmasını arzu edən Hökumətim tərəfindən mütarikə əqd edilməsi qəsdi [atəşkəs bağlanması məqsədi] ilə Gürcüstan və Ermənistan hökumətləri arasında vasitəçilik vəzifəsini ifa etmək təklifini edirəm."

## QƏZETƏLƏRDƏN

**İsveç kralının taxtından əl çəkəcəyi ehtimalı**

Stokholmdan verilən məlumata görə, ora siyasi əhvalı gərginləşmişdir. Dəvairi-siyasiyyədə [siyasi dairələrdə] danışılır ki, məsələ kral Qustavın taxtından əl çəkməsi ilə həll ediləcəkdir. İşbu günlərdə kral taxtından əl çəkəcək də cümhuriyyət elan ediləcəkdir.

* Libavaya dörd zirehli kreyser [sürətli hərb gəmisi], bir mina tutan gəmi və altı müxribdən [destroyerdən] ibarət bir ingilis donanması gəlmişdir. Ehtimal üzrə, vaporlarda qoşun vardır. Bu qoşunlar da bolşeviklərlə mübarizə etməkdən ötrü şimala tərəf gedəcəkdir.

* Qəzetələrin məlumatına görə, Hindistan muxtariyyəti-məşrutiyyəsi [konstitusiyalı muxtariyyəti] məsələsi ən yaxın zamanda həll ediləcəkdir. Bunu da əlavə etməlidir ki, Hindistanda bundan ötrü çoxdan bəri zəminə hazırlanmışdır. 18-85-ci sənədən sonra Hindistan, Milli Konqre iniqad [təşkil] etməyə başlamışdı. İşbu konqre rəsmi bir dairəədd [hesab] edilmədiyinə baxmayaraq, böyük əhəmiyyəti haiz olmuşdur [daşımışdır]. Zira burası, gələcək muxtar Hindistanın idarəsində fəaliyyətdə bulunmaq üçün məlumatlı üzvlər hazırlayır. Böyləliklə, təşkil ediləcək İngiltərə müstəmləkatında [müstəmləkələrində] ehtimal edilən narazılıq bərtərəf edilmiş [aradan qaldırılmış] olacaqdır. İngiltərənin federasyon əsası üzərində təşkil edilməsi məsələsi sabiqdən [qabaqcadan] belə nəşət etmiş [meydana atılmış] idi. Böylə ki, hər muxtariyyətli ölkə öz mədəni təfəvvüqünə [inkişafına] çalışacaqdır. Ola bilsin ki, federasyon məqsədi qövldən feilə [sözdən işə] belə gəlsin və bütün İngiltərə müstəmləkatı muxtariyyətini alsın. Bundan sonra İngiltərə dövləti qüvvəsi artacağı təbiidir. Həqiqətən böylə olsa, İngiltərə bütün dünyada xüsusi bir qüvvəyə malik olacaqdır. Zira başqa xırda dövlətlər onun mehvərinə daxil olmağa çalışacaqlardır.

**Ukraynada**

"O. N." qəzetəsi mühərriri Xerson quberniya komissarı Lutsenko ilə müsahibə əsnasında xəbər almışdır [soruşmuşdur] ki, ukraynalılar federasiya və ya istiqlaliyyət istəyirlər? Lutsenko cavab vermişdir ki, ukraynalılar sağdan və soldan gələn bolşeviklərlə federasiya qura bilməyəcəklərdir. Buna görə də ukraynalılar istiqlaliyyət tərəfdarıdırlar. Sabiq Rusiyanın başqa hissələrinə olacaq münasibat məsələsini Ukrayna milləti özü həll edəcəkdir.

## DAĞISTANLILAR CÜMHURİYYƏTİNDƏ

**Azərbaycan Hökumətinə nota**

Dağıstanlılar Cümhuriyyətinin siyasi nümayəndəsi Əlixan Kantemirov cənabları Azərbaycan Hökuməti Rəisi-Vükəlasına [Baş Nazirinə] nota təqdim etmişdir:

Alicənab Rəisi-Vükəla! Mənim hökumətimin Baş vəzirinin tapşırması ilə sizə məlum edirəm ki, işbu il 15 kanuni-əvvəlindən [dekabrından] etibarən Şimali Qafqaziya Cümhuriyyəti Müttəfiq Şurası (Parlaman) fəaliyyətə başlayıb, Çermoyev Kabinəsi istefasını qəbul etdikdən sonra, Müttəfiq Şura üzvü və sabiq Daxiliyyə naziri cənab Kotsevdən yeni müştərək kabinə təşkili rica etmişdi. Kabinə işbu zəvatdan [şəxslərdən] mürəkkəb [ibarət] olub, Müttəfiq Şura tərəfindən təsdiq edilmişdir:

Rəisi-vükəla (portfelsiz) P. Kotsev; Hərbiyyə naziri miralay [polkovnik] knyaz Tarkovski; Xariciyyə naziri Heydər Bammatov; Daxiliyyə naziri Rəşid xan Qaplanov, Maliyyə Cabaqiyev, Ticarət və Sənaye və Ərzaq Mallaçıxan, Türüq və Məabir [Nəqliyyat və Rabitə] İbrahim Heydərov, Maarif Şahsüvarov, Ziraət naziri Butayev.

Ədliyyə, Məsai [Əmək] naziri, Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] və Dövlət Müfəttişi yerləri Tersk nahiyə kəndçiləri və kazaklarına verilmişdir. Fəqət bunlar bu vaxtadək gəlməmişlər. Bolşeviklərlə mübarizədən naşi [ötrü] əhvali-fövqəladəyə məbni [fövqəladə vəziyyətə görə] Şimali Qafqaziya Millətləri Cümhuriyyəti Parlamanı kanuni-saninin [yanvarın] 20-ədək fəaliyyətini saxlayıb, öz hökumətinə ixtiyari-tam [tam səlahiyyət] vermişdir.

Fövqdə məzbur [yuxarıda adı keçən] hökumətim namindən sizə məlum etməklə inanıram ki, siz və hökumətiniz tərəfindən, təşkil edilmiş Kabinə hüsn-təvəccöh və müvafiqət [həmrəylik] görəcəkdir. Zira, Azərbaycan və Şimali Qafqaziya qardaş millətləri miyanındakı [arasındakı] əlaqələr qeyri-mütəzəlzil bir ənənat [sarsılmaz bir ənənə] şəkli almışlar.

* Azərbaycan Cümhuriyyəti nəzdindəki Dağıstanlılar Cümhuriyyəti siyasi nümayəndəsi Əlixan Kantemirov Şimali Qafqaziya səfərindən övdət etmişdir [qayıtmışdır].

* Dağıstanlılar Cümhuriyyəti Hökuməti Müttəfiq Şura (Parlaman) tərəfindən qəbul olunmuş səfərbərlik elan etmişdir. Əvvəlcə 19-25 yaşınadək cavanlar könüllü olaraq orduya qəbul ediləcəklər, böyləliklə kafi dərəcədə qoşun çıxmaz isə mükəlləfiyyəti-əsgəriyyə [hərbi xidmət] qanunu mövcibincə [əsasında] həman 19-25 yaşınadək cavanlar əsgərliyə alınacaqlar. Əsgərliyə alınacaq cavanlar ərkani-hərbə [qərargaha] yazıldıqları gündən etibarən 300 rublə maaş alacaqlar. Müharibədə iştirak etdikləri gündən 500 rublə maaş alacaqlar. Müharibədə şəhid olan əsgərlərin külfətləri hökumət tərəfindən təmin ediləcəklər.

* Kanuni-əvvvəlin [dekabrın] 18-də Bakıda Müttəfiqlər komandası heyəti-mürəxxəsəsi [nümayəndə heyəti], başda ingilis miralayı Roulendson olmaq üzrə Teymurxanşuraya azim olmuşdur [yola düşmüşdür]. Dərbənd və Petrovskda heyəti təntənəli surətdə istiqbal etmişlər [qarşılamışlar]. İstiqbalda müsəlman ruhaniləri nümayəndələri, rus və yəhudi milli komitələri nümayəndələri iştirak etmişlərdir. Teymurxanşurada heyəti təntənəli surətdə istiqbal etmişlər. Aldığımız məlumata görə, heyət məhəlli [yerli] əhvalı ziyadəsincə kafi və şafi tapdığından [kafi və qənaətbəxş gördüyündən], Dağıstanlılar Hökuməti ilə əlbir çalışacaqdır.

* Kanuni-əvvəlin [dekabrın] 24-də, Quba qəza qaimməqamı [qəza rəisi] əmri mövcibincə [əmrinə əsasən] Müşkür dairəsi müfəttişi, müsəlləh [silahlı] nəfərlərlə Yalama mövqifinə [stansiyasına] gəlib mövqif komandanına təcili surətdə oradan çıxmağı təklif etmişdir. Əkssurətdə silah zoru ilə iş görəcəyini qeyd etmişdir. Dağıstanlılar Cümhuriyyəti mövqif komendantı Yalamadan getməyə məcbur olmuşdur. Dağıstanlılar Cümhuriyyəti Hökuməti öz siyasi nümayəndəsi Əlixan Kantemirov vasitəsilə Azərbaycan Xariciyyə Nəzarəti ilə işbu ixtilafı təhqiq etmək tapşırılmışdır.

**Dağıstan Hökuməti ilə kazaklar arasında müahidənamə [müqavilə]**

1918-ci il dekabrın 10-da Dağıstanlılar Hökuməti nümayəndəsi [Əbdül]məcid Çermoyev və P. Kotsev ilə Tersk Kazak və Kəndli Hökuməti nümayəndələri Sapranov və Gireyev arasında bu aşağıdakı maddələrdən ibarət bir müahidənamə əqd edilmişdir [bağlanmışdır]:

1 - Tersk əyalətinin kazak və kəndliləri Dağıstan əhalisi ilə siyasi, iqtisadi və hökumət təşkilatı mənafeyinin ümumi olduğunu etiraf edib, hüquqda müsavi [bərabər] üzv sifəti ilə bu millətlər ittifaqına daxil olurlar və mütənasib əsasla məzkur [adı çəkilən] İttifaq Cümhuriyyətinin hökumət və camaat idarələrində iştirak edirlər.

2 - Bu İttifaqa məxsus olan torpağın çox hissəsinin bolşeviklər tərəfindən zəbt edildiyini və bolşevik hərcmərcliyi sayəsində əhalinin müflis bir hala düşməsini nəzərə alıb, müahidə əqd edən tərəflər bolşeviklərlə mübarizə və asayiş bərpası üçün öz qüvvələrini cəm etməklə birləşdirməlidirlər. Hər iki tərəf ixtiyarında olan texnika və sair, hərbiyyə idarəsinə verilməlidir.

3 - Bolşevik hökuməti əlindən alınan torpaqlar camaatın etibarını qazanmış hökumət ixtiyarına keçir.

4 - Hər iki tərəfin bütün müsəlləh [silahlı] qüvvələrinin baş komandan[lığ]ı bolşeviklər əleyhinə əməliyyatda bulunan müddətə qədər Müttəfiq dövlət nümayəndəsi ixtiyarına verilir.

5 - Hər iki tərəfin əsgəri qüvvəsi könüllülərdən olduğu kimi istehzari-əsgəriyyə [hərbi çağırış] vasitəsi ilə mütənasib bir surətdə cəm edilməlidir.

6 - Komanda heyətinin təyini və müttəhid qüvvələrin daxili təşkilatı, ittifaqın Hərbiyyə nazirinə məxsusdur.

Qeyd: Kazak və kəndli əsgəri dəstələrində bu ixtiyar kazak və kəndli idarəsi ixtiyarında qalır.

7 - Hər iki tərəfin ümdə məqsədi hər iki millət arasında möhkəm sülh bərpasından ibarətdir. Buna binaən [əsasən], bolşeviklərlə mübarizə qurtardıqdan sonra müştərək hökumət ədalətli bir surətdə dərhal torpaq məsələsinin həllinə şüru etməlidir [başlamalıdır].

8 - Hərgah, dağıstanlılar ilə kazaklar torpaq məsələsini özləri həll edə bilməzlərsə, bu məsələnin həlli Müttəfiq dövlət nümayəndələrindən ibarət hakəm [münsiflər] komissiyasına həvalə olunmalıdır.

9 - Müştərək hökumət, əhali arasında həmişə müsadiməyə [toqquşmaya] bais olan yağma [talan] və qarət əleyhinə ciddi tədbirlər ittixaz etməlidir [tədbirlər həyata keçirməlidir].

10 - Bu müahidənamə hər iki tərəfin imzasından və Müttəfiq dövlət nümayəndələrinin təsvibindən [təsdiqindən] sonra icraya qoyulmalıdır.

# REGİONLAR

## Şəhid övladı yüksək balla ATU-ya qəbul olunmuşdur

**Göygöl rayonundan olan Vətən müharibəsi şəhidi Ceyhun Niftəliyevin övladı Nihat yüksək balla Azərbaycan Tibb Universitetinə qəbul olunmuşdur.**



Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev şəhidin evində olmuş, onun ailə üzvləri ilə görüşərək Nihatı tələbə adı qazanması münasibətilə təbrik etmişdir. Şəhid və qazi adının müqəddəs olduğunu diqqətə çatdıran RİH başçısı sonra dövlətin bu kateqoriyalardan olan insanlara göstərdiyi diqqət və qayğıkeşlikdən danışaraq, onların Vətənə əmanət olduğunu bildirmişdir. Sonra o, yüksək bal toplayaraq tələbə adını qazanmış Nihata xatirə hədiyyəsi təqdim etmişdir.

## Uşaq evinin sakini tələbə adını qazanmışdır

**Gəncə Uşaq Evinin sakini Həsən Həsənov bu il ali məktəblərə keçirilən test imtahanında yüksək bal toplayaraq tələbə adını qazanmışdır.**

Gəncə ŞİH-in başçısı, Milli Məclisin deputatları, YAP Gəncə şəhər təşkilatının sədri, Gəncə Uşaq Evinin direktoru və başqaları tələbəni təbrik etmək üçün onunla görüşmüşlər. ŞİH-in başçısı Niyazi Bayramov Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gənclərə, xüsusilə valideyn himayəsindən məhrum olan uşaqlara göstərdikləri diqqət və qayğıkeşlikdən danışmış, onların yüksək səviyyədə təhsil almaları və müstəqil ölkəmizin layiqli vətəndaşları olmaları üçün hər cür şərait yaradıldığını qeyd etmişdir. ŞİH-in başçısı Həsən Həsənovu ali məktəbə qəbul olması münasibətilə təbrik edərək gələcək həyatında uğurlar, yüksək nailiyyətlər arzulamışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Pambıq yığımına sayılı günlər qalır



### Ağcabədi kəndlisinin cari mövsüm də bu gəlirli sahədən gözləntisi çoxdur

**Bar, ruzi fəsli olan payız öz bərəkət boğçasını bu yerlərdə yenə də səxavətlə açır. Göz işlədikcə uzanan geniş tarlalar yavaş-yavaş ağ örpəyə bürünür. Taleyini torpağa, halal zəhmətə bağlayan Ağcabədi kəndlisinin aylardan bəri çəkdiyi gərgin əməyin, axıtdığı alın tərinin bəhrəsi göz oxşayır, üzə gülür.**

Pambıq bu yerlərdə həmişə torpağın qiymətli sərvəti, kəndlinin güzəranının əsas mənbəyi olub. Prezident İlham Əliyevin ənənəvi kənd təsərrüfatı sahələrini, o cümlədən pambıqçılığı inkişaf etdirmək məqsədi ilə imzaladığı sərəncamlar, verdiyi tapşırıq və tövsiyələr artıq neçə ildir regionlarda bir canlanma yaratmışdır. Dövlətin fermerə, torpaq mülkiyyətçisinə artan qayğıkeşliyi və diqqəti, yaradılan işgüzar şərait, büdcədən ayrılan subsidiyalar, gübrələrin, kənd təsərrüfatı texnikasının güzəştli qiymətlərlə satışının təşkili sözün həqiqi mənasında kəndliyə qol-qanad vermiş, onda əkib-becərməyə həvəs oyatmışdır.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov bizimlə söhbətində kəndlərdəki bugünkü durumu, dövlətin aqrar sektorun inkişafına yönəlik qayğıkeşliyi və diqqətini özünəməxsus maraqlı yanaşma mövqeyindən dəyərləndirir:

- Bir vətəndaş olaraq etiraf etməliyik ki, bu gün dövlətimizin qayğı yükü xeyli ağırdır. 30 il Ermənistan işğalı altında qalan, dağıdılıb viran qoyulan ərazilərimizin 44 günlük savaşda dünyada misli görünməmiş bir qəhrəmanlıqla azad edilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdə qüdrətinin, vətənini canından artıq sevən Azərbaycan əsgərinin qəhrəmanlığının parlaq təntənəsidir, Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılan şanlı səhifədir. Prezident indi işğaldan azad edilmiş ərazilərdə - Qarabağda və Şərqi Zəngəzurda gündən-günə sürətlənən quruçuluq prosesinin baş memarı missiyasını da şərəflə yerinə yetirir. Bütün bunları xatırlamaqla demək istəyirəm ki, bu gün dövlətin əsas hədəfi Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işləridir. Lakin bu reallıq bizim məsuliyyətimizi zərrə qədər azaltmamalıdır. Dövlət başçısı bizə aydın istiqamət verib, konkret vəzifələr tapşırıb. Həmin vəzifələrin icrası olaraq keçən il bütün növ kənd təsərrüfatı məhsulları istehsalında böyük uğurlar qazandıq. Bu il isə hədəf həmin uğurları təzələməkdir. Ağcabədi kəndlisi çalışır ki, indiki məqamda dövlətə yük olmasın, istehsal etdiyi məhsullarla ölkənin aqrar sektoruna sanballı töhfələr versin.

Rafil Hüseynovla söhbətdən onu da öyrənirik ki, rayonda taxılçılığın inkişafına böyük önəm verilir. Əlbəttə, bu, doğru yanaşmadır. Çünki dünyanın qaynadığı indiki rahatsız məqamda taxılın, çörəyin bolluğu çox vacibdir. Bu il rayonun təsərrüfatlarında 19514,2 hektarda buğda, 7150 hektarda arpa yetişdirilmişdir. Buğda zəmilərindən 74211, arpa sahələrindən isə 27956 ton məhsul biçilmişdir. Məhsuldarlıq buğda üzrə 47,5, arpa üzrə 39,1 sentner olmuşdur. Hazırda gələn ilin məhsulu üçün taxıl əkininə hazırlıq görülür. İndiyədək 24 min hektarda şum edilmişdir. Bu iş aqrotexniki qaydalar əsasında davam edir.

Rayonda gəlirli sahə olan baramaçılığın inkişafı da diqqət mərkəzindədir. Təsərrüfatlarda baramaçılığın yem bazasının möhkəmləndirilməsi üçün yeni çəkil bağları salınır, kümxanalar genişləndirilir. Bu hesaba cari il 700 qutu ipək qurdundan 34450 kiloqram yüksək keyfiyyətli ipək xammalı istehsal edilmişdir. Hər qutu ipək qurdundan orta məhsuldarlıq 49,2 kiloqram olmuşdur ki, bu da baramaçılıqla məşğul olan rayonlar arasında ən yüksək iki göstəricidən biridir.

İstər sovet dönəmində, istərsə də sonrakı illərdə Ağcabədi respublikanın böyük pambıq istehsalçısı kimi tanınmışdır. Ənənə bu gün də davam edir. Xatırladaq ki, keçən il rayon üzrə 40361 ton pambıq tədarük edilmiş və orta məhsuldarlıq 34,1 sentner olmuşdur. Ötən təsərrüfat ilində pambıqçı fermerlərə 6,7 milyon manatdan çox məhsul subsidiyasına görə ödəniş edilmişdir. Pambığın becərilməsinə çəkilən xərclər çıxıldıqdan sonra isə fermerlərə 13,3 milyon manat ödənilmişdir. Dövlət tərəfindən ödənilən subsidiyanı da nəzərə aldıqda ötən il fermerlər 20 milyon manat məbləğində xalis gəlir əldə etmişlər.

Cari təsərrüfat ilinə gəldikdə, bu mövsüm "MKT-İK" MMC-nin Ağcabədi filialı ilə 4392,4, "Azərpambıq" MMC-nin rayon filialı ilə 3770, "P-Aqro" MMC-nin Ağcabədi filialı ilə 2400, "Cotton Trade" MMC ilə 690,7, "Azərtəsərrüfat" MMC ilə 169,58 və "AŞİB" MMC ilə 70 hektar olmaqla ümumilikdə 11492,7 hektar sahədə çiyid səpini aparılmışdır. Artıq pambıq yığımına sayılı günlər qalır. Ötən illər olduğu kimi, məhsul yenə də texnikanın gücü ilə yığılacaq. Pambıqyığan kombaynlar, nəqliyyat traktorları, yükləyici və yedəklər keyfiyyətlə təmir edilib start xəttinə çıxarılmışdır. Pambıq qəbulu məntəqələri və emal zavodları da mövsümə vaxtında hazırlaşmışlar. Bir sözlə, ötən il ölkədə ən çox pambıq istehsal etmiş ağcabədili fermerlər bu mövsüm də birinciliyi əldən verməyəcəklərinə əmindirlər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## İşğaldan azad edilmiş ərazilərimizin potensialı ÜDM-in dəyərinin artmasına səbəb olacaq

**Sakinlərin işğaldan azad olunmuş ərazilərə köçürülməsi davam edir. Dövlətimiz bu prosesi düşünülmüş və rasional siyasi konsepsiyalar əsasında reallaşdırır.**

Bunu AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, ekspert Tural İsmayılov bildirib. O qeyd edib ki, Böyük qayıdışın həyata keçirilməsi üçün dövlət bölgədə mühüm işlər görüb. Belə ki, iqtisadi potensialın və imkanların reallaşdırılması, xüsusilə bölgə əhalisinin məhsullara tələbatının ödənilməsinə, burada aqrar bölmənin məhsullarının emalı sahələrinin inkişafına, ən əsası isə ölkəmizdə ərzaq təhlükəsizliyinin yüksəlməsinə əlverişlı şərait yaradılır.

Tural İsmayılov əlavə edib ki, "Böyük qayıdış" proqramına uyğun olaraq, işğaldan azad olunan ərazilərə köçürülən sakinlərin aktiv məşğulluq proqramları ilə əhatə olunması istiqamətində işlər davam etdirilir. Ekspert bildirib ki, Böyük qayıdışın reallaşdırılması eyni zamanda Azərbaycan iqtisadiyyatına yeni daxilolmalar cəlb edəcək.

STM-in sektor müdiri vurğulayıb ki, işğaladək bu ərazilərdə fəaliyyət göstərən sənaye sahələri respublika iqtisadiyyatında mühüm rola malik idi. Burada əsasən yeyinti, yüngül, tikinti materialları kimi sənaye sahələri güclü inkişaf tapmışdır. İşğaladək bu ərazilərin sənaye sahələri arasında daha güclü inkişaf edənləri yerli əhalinin ərzaqla təminatında mühüm əhəmiyyət daşıyırdı.

Beləliklə, işğaldan azad edilmiş torpaqlarımızın potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi ölkə ÜDM-in dəyərinin artmasına, qeyri-neft sektorunun inkişafı ilə bağlı proqnozları yaxşılaşdırmaq istiqamətində dəqiqləşdirməyə, ölkənin ərazi əmək bölgüsündə bölgənin yerini və payını yüksəltməyə, bölgədə istehsal olunan malların və xidmətlərin rəqabət qabiliyyətini təmin etməyə böyük imkanlar yaradacaq.

## İşıqlı sabahımızın uğurlu gəncləri

### Bu il 200 qaxlı məzun tələbə adını qazanıb

**Bu il Qax rayonu üzrə 478 şagird məzun olub. Onlardan 200 nəfəri tələbə adını qazanıb. Tələbə adını qazanan məzunlardan 23 nəfəri 500-dən çox, o cümlədən 7 nəfəri 600-dən çox bal toplayıb.**

Yüksək bal toplayan məzunlardan 5 nəfəri Namiq Allahverdiyev adına Qax şəhər 2 saylı məktəb-liseyin yetirməsidir. İlisu və Marsan kənd tam orta məktəblərinin hərəsinin bir məzunu da 600-dən çox bal toplamışdır. Onu da qeyd edək ki, məzunlardan Elgün Hacıxanov 672 bal toplayaraq zona 2-cisi olub.

Rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyev hər il olduğu kimi, bu il də Qax məktəblilərinin uğurunu yüksək dəyərləndirib və məzunları təbrik edib. Qeyd edib ki, tək qaxlı gənclərin deyil, Azərbaycanın hər bir gəncinin uğuru bizləri sevindirir: "Bu gün doğma Azərbaycanımız sürətlə inkişaf edir. Hər bir ölkəni isə müasir biliklərə mükəmməl yiyələnmiş gənclik daha irəli apara bilər. İndi gənclərimizin geniş imkanları var. Bu gün Azərbaycan gəncləri dünyanın ən məşhur universitetlərində təhsil alır. Elə Qaxın onlarca gənci Türkiyədə, ABŞ-də, İngiltərədə və digər ölkələrdə oxuyur. Gün gələcək, yüksək bal toplayıb tələbə adını qazanan hər bir gəncimizin sorağını çox-çox uzaqlardan, dünyanın tanınmış universitetlərindən alacayıq. Kim olursunuzsa-olun, harada oxuyursunuzsa-oxuyun, ilk növbədə seçdiyiniz sahəni mükəmməl öyrənin və bir də Azərbaycan gənci olduğunuzu unutmayın. Çalışın davranışınızla, mədəniyyətinizlə Azərbaycanın adını uca tutasınız".

Sonda məzunlara mükafatlar təqim edilmiş, xatirə şəkilləri çəkilmişdir.

*Xavər ƏFƏNDİYEVA,*
*Qax rayonunda çıxan "Şəlalə" qəzetinin redaktoru*

## Muğan düzünün "oazis"i

**Salyan Aqroparkı Ələt-Astara magistral yolunun üstündə yerləşir. Aqropark ilk baxışdan abadlığı, müasirliyi ilə diqqəti cəlb edir. İnzibati binaları, hündür taxıl anbarlarını, pambıq emalı zavodunu, maşın-traktor parkını, yanacaqdoldurma məntəqəsini, iaşə obyektlərini həm də ölkəmizin sosial-iqtisadi inkişafının kiçik bir ərazidə nümayişi kimi qəbul etmək olar.**



Çox yox, 7-8 il öncə bu ərazilər bomboz Muğan düzü idi. Yeni yolun salınması bu ərazidə aqroparkın yaradılmasına yaşıl işıq yandırdı. Bununla onilliklər boyu bomboş qalan torpaqlara nəfəs gəldi. "Su həyatdır, bolluqdur" deyiblər. İki istiqamətdən - Salyan rayonunun Qızılağac və Xurşud kəndlərindən buraya su kanalları çəkildi. Muğan torpağı şorqat, yəni duzlu olduğundan yüksək məhsul əldə etməyə imkan vermir. Elə torpağın üst qatındakı duzu yumaq üçün burada genişmiqyaslı meliorasiya və irriqasiya tədbirləri həyata keçirildi. 250 kilometr uzunluğunda kollektor-drenaj şəbəkəsi çəkildi, 800 hektardan çox sahədə hamarlama işləri görüldü. Həyata keçirilən tədbirlər nəticəsiz qalmadı, torpağın məhsuldarlığını artırdı. Bu yerdə bir məsələni də qeyd edək: bütün bu işlərin hamısı aqroparka məxsus texnikaların vasitəsilə icra olunur. Onların sayı isə 140-dan çoxdur.

Salyan Aqroparkı əsasən pambıqçılıqla məşğuldur, yəni park əkib-becərdiyi pambığı həm də özü emal edir. İşin belə təşkili parkın səmərəli fəaliyyəti üçün şərait yaradır. Yetişdirilən məhsulun elə burada mahlıc halına salınması hər tərəfdən sərfəlidir. Məhsulun satışı da müəssisənin özü tərəfindən həyata keçirilir. Bu da iqtisadi baxımdan əlverişli olmaqla yanaşı, müəssisədə daha çox iş yerinin yaradılmasına imkan verir. Yeri gəlmişkən, bildirək ki, gündəlik istehsal gücü 200 ton olan zavodda hazırda 100 nəfərdən çox işçi çalışır.

Baharda Salyan Aqroparkı 2 min 194 hektar sahəyə pambıq əkmişdir. Bunun 1000 hektarı aqroparka, qalan 1194 hektarı ayrı-ayrı fermerlərə məxsusdur. Əkilən toxum "Loqos" və "Bəyaz altun" sortları olmuşdur. Səpin zamanı çiyidlə birlikdə hər hektara 100 kiloqram ammofos gübrəsi verilmişdir ki, bu da toxum cücərən kimi onun normal inkişafı üçün ilkin şərt sayılır. Becərmə zamanı aqrotexniki şərtlərə əməl olunmaqla bəzi yerlərdə 4, bəzi yerlərdə 5 dəfə kompleks becərmə aparılmışdır. Hər hektara 250 kiloqram azot gübrəsi verilmiş, sahələr alaq otlarından vaxtında təmizlənmiş, ziyanvericilərə qarşı təsirli tədbirlər görülmüş və ən əsası, pambıq üçün vacib şərt olan 3 dəfə suvarma həyata keçirilmişdir. Nəticədə tarlalarda bol məhsul yetişmişdir. Mütəxəssislər hər hektardan 35-40 sentner məhsul yığılacağını proqnozlaşdırırlar.

Yığımın başlanmasına isə çox qalmayıb. Artıq ABŞ istehsalı olan "Conder" markalı 22 pambıqyığan maşın saz vəziyyətə gətirilərək start xəttinə çıxarılmışdır. Bir neçə gündür ki, seçmə üsulu ilə sahələrdə defolyasiya - pambıq kollarının yarpaqlarının tökülməsi üçün dərmanlama aparılır. Yarpaqlar töküldükcə sahələr yaşıl libasını soyunaraq bəyaz dona bürünür.

Sentyabrın 15-dən başlayaraq maşınlar tarlalara çıxıb aylardan bəri böyük zəhmət bahasına yetişdirilən pambığı yığmağa başlayacaqlar. Qəbul məntəqəsi və zavod məhsul qəbul etməyə hazırdır. Kollektiv kiçik deyil. Burada mövsümi işlərdə 500 nəfərə qədər adam çalışır. Onların əksəriyyəti pambığın becərilməsi ilə məşğul olur. Pambıq emalı zavodunda isə 104 nəfər çalışır.

Sonda onu da bildirək ki, bu yaxınlarda aqroparkda istehsal gücü saatda 5 ton olan yem zavodu da istifadəyə verilmişdir. Müəssisədə quş, mal, balıq və dovşanlar üçün müxtəlif komponentlərdən ibarət qarışıq yemlər istehsal olunacaq.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Quba-İspik-Xınalıq avtomobil yolunda selin yaratdığı fəsadlar aradan qaldırılıb



**Güclü yağış nəticəsində yaranmış sel suları Quba-İspik-Xınalıq avtomobil yolunun bəzi hissələrini (əsasən yolun 22-57-ci kilometrliyində ) yararsız hala salıb, yol infrastrukturuna və yol qurğularına ciddi ziyan vurmuşdu.**

Bundan başqa, sel suları özü ilə bərabər lil və qaya parçaları gətirərək yolda avtonəqliyyat vasitələrinin hərəkətində çətinliklər yaratmışdı.

Dərhal avtomobil yolu boyunca hərəkətin təhlükəsizliyi və fasiləsizliyində yaranan problemlərin aradan qaldırılması üçün əraziyə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin xüsusi texnikaları və canlı qüvvəsi səfərbər olunub.

Təxirəsalınmaz tədbirlər nəticəsində yolboyu təhlükəsiz və fasiləsiz hərəkət bərpa olunub. Hazırda sözügedən ərazidə işlər davam etdirilir və yol nəzarətdə saxlanılır.

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## *açıq tender elan edir*

Sabirabad rayonu, Z.Əliyev adına Quruzma kənd 528 şagird yerlik tam orta məktəbin tikinti işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi 18.
Tel.: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2500,00 (iki min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 10 oktyabr 2023-cü il saat 15:00-a, tender təklifi və tender təklifinin bank təminatını 18 oktyabr 2023-cü il saat 15:00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 19 oktyabr 2023-cü il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

# Hipermarketdə baş vermiş silahlı insidentlə bağlı cinayət işinin istintaqı yekunlaşıb

**Martın 4-də qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən paytaxtın Xətai rayonu ərazisində yerləşən "Bravo" hipermarketinə edilən silahlı basqın nəticəsində xidməti vəzifəsini yerinə yetirərək orada quraşdırılmış və "Unibank Kommersiya Bankı" ASC-yə məxsus bankomata pul vəsaitlərini yerləşdirən Samir Şaydayevə ağır xəsarət yetirilməsi, onun mühafizəsini təşkil edən Rüfət Həşimovun isə öldürülməsi, eləcə də külli miqdarda pul vəsaitinin ələ keçirilməsi faktı ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində başlanmış cinayət işinin istintaqı tamamlanıb.**




Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, cinayət işi üzrə toplanmış mötəbər sübutlar əsasında 6 nəfər - 1 şəxs qabaqcadan əlbir olan bir qrup şəxs halında və quldurluqla əlaqədar xidməti vəzifəsini yerinə yetirən şəxsi qəsdən öldürmə və öldürməyə cəhd etməyə görə, 3 şəxs eyni əməllərinin törədilməsinə köməkliyə görə, 1 şəxs qabaqcadan əlbir olan bir qrup şəxs halında odlu silah hazırlamağa köməkliyə görə, 1 şəxs isə bu cinayət əməlini törətməyə təhrik etməyə görə cinayət məsuliyyətinə cəlb edilib.

Belə ki, cinayəti icra etmiş Dəyanət Qudrətova Cinayət Məcəlləsinin 120.2.1, 120.2.3, 120.2.11 (qabaqcadan əlbir olan bir qrup şəxs halında və quldurluqla əlaqədar xidməti vəzifəsini yerinə yetirən şəxsi qəsdən öldürmə), 29, 120.2.1, 29, 120.2.3, 29, 120.2.7, 29, 120.2.11 (qabaqcadan əlbir olan bir qrup şəxs halında, ümumi təhlükəli üsulla və quldurluqla əlaqədar xidməti vəzifəsini yerinə yetirən iki şəxsi qəsdən öldürməyə cəhd) 181.3.2 (sağlamlığa ağır zərər vurmaqla quldurluq), 228.2.1, (qanunsuz olaraq odlu silah, onun komplekt hissələri və döyüş sursatını əldəetmə, daşıma və gəzdirmə) 229.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silah hazırlama) və digər maddələri, cinayətin törədilməsində köməkçilər - Azər Məmmədov, İbrahim İbrahimov və Səbuhi Qurbanova həmin Məcəllənin 32.5, 120.2.1, 32.5, 120.2.3, 32.5, 120.2.11, 32.5, 29, 120.2.1, 32.5, 29, 120.2.3, 32.5, 29, 120.2.11, 32.5, 29, 120.2.7, 32.5, 181.3.2, 228.2.1, 229.2.1 və digər maddələri, cinayətin törədilməsində köməkçi - Rövşən İsmayılova həmin Məcəllənin 228.2.1 və 32.5, 229.2.1-ci, cinayətin törədilməsində təhrikçi Babək İsgəndərova isə qeyd olunan Məcəllənin 228.2.1 və 32.3, 229.2.1-ci maddələri ilə ittiham elan edilib.

Həyata keçirilən təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində cinayətin törədilməsində iştirak edən Ruhlan İsmayılov tutularkən polis əməkdaşlarına qarşı silahlı müqavimət göstərdiyi üçün zərərsizləşdirilib.

Ölmüş təqsirləndirilən şəxs Ruhlan İsmayılovun qeyd edilən cinayətdə təqsiri istintaq zamanı tam sübuta yetirilmiş olsa da, onun barəsində cinayət yeni xarakterli xüsusatlar aşkar edildiyinə görə iş materiallarından barəsində cinayət işi ayrılaraq istintaqı davam etdirilir.

Cinayətin törədilməsində istifadə edilən AKS Lancaster-03" markalı yivsiz ov tüfəngi, "Makarov" tipli tapança, həmçinin təqsirləndirilən şəxslərin yaşadığı ünvandan "Minta37" markalı tapança, çoxsaylı döyüş sursatları, "Unibank Kommersiya Bankı" ASC-yə məxsus 16 min 835 manat və 20 min 100 ABŞ dolları məbləğində pul vəsaitləri aşkar edilərək götürülüb.

Cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# İnzibati həbs müddəti başa çatmış 3 erməniəsilli futbolçu azadlığa buraxılıb

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Dövlət Bayrağı barədə təhqiredici hərəkətlər etmiş 3 erməniəsilli futbolçu avqustun 28-də Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Laçın sərhəd nəzarət-keçid məntəqəsində saxlanılıb. Azərbaycan dövlətinin humanist dəyərlərə sadiqliyinin nümunəsi olaraq barələrində cinayət təqibinə xitam verilərək cinayət məsuliyyətindən azad edilib və İnzibati Xətalar Məcəlləsinin 388-1-ci maddəsi ilə (İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi) başlanmış icraat üzrə onların hər üçü məhkəmənin qərarı ilə 10 gün müddətinə inzibati qaydada həbs olunub.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib.

Məlumata görə, bu gün həmin şəxslərin tənbeh müddəti başa çatdığından onlar azad olunaraq Baş Prokurorluq və Daxili İşlər Nazirliyi əməkdaşlarının müşayiəti ilə Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olaraq Laçın sərhəd nəzarət-keçid məntəqəsindən Ermənistana keçmələri təmin edilib.

Azad olunan şəxslər onlara göstərilən humanizmə görə Azərbaycan dövlətinə təşəkkür edərək, həbsdə olduqları müddətdə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarının tam təmin olunduğunu, saxlanma şəraiti və göstərilən münasibətdən razı olduqlarını, hər hansı şikayətlərinin olmadığını bildiriblər.


# OXUCULARIN NƏZƏRİNƏ!




**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Lənkəran Dövlət Universiteti

## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir: Yeni nəsil çöl reklam daşıyıcısı

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız ASAN Ödəniş vasitəsilə həyata keçirilə bilər. Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 100.00 (bir yüz) AZN**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir).*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış 2023-cü ilin sentyabr ayı ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2023-cü ilin sentyabr ayı ərzində verilmiş olmalıdır.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir).*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir).*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin sentyabr ayı ərzində verilmiş olmalıdır.*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin sentyabr ayı ərzində verilmiş olmalıdır.*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya "ASAN xidmət" mərkəzlərindən).*
13. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.*
14. *Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

**İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 27 sentyabr 2023-cü il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 05 oktyabr 2023-cü il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.**

**İddiaçıların təklifləri 06 oktyabr 2023-cü il saat 17:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.**

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


# ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Elçin Vəliyevə əzizi

**ZƏRİFƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İqtisadiyyat Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi AHİK sədrinin müavini Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanova əzizi

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qambay Muradov, Cavid Əsədov, Abid Əliyev, Əlikram Qasımov, İxtiyar Qafarov, Azər Baxışov, Elxan İlyasov, Elxan Behbudov və Rafiq Hüseynov Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin 20 №-li Xüsusi Təyinatlı Yol İstismarı MMC-nin direktoru Mirqiyas Kazımova anası

**XANIM MİRSAHİB QIZININ**

Saatlı rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5509**
**Sifariş 2268**

**Qiyməti 40 qəpik**